

Milli azadlıqdan şirin nemət yoxdur!

# Zəfər ayının 2-ci günü...

İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşa Bulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

4:17 PM · Nov 2, 2020 · Twitter for iPhone

İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

5:51 PM · Nov 4, 2020 · Twitter Web App

Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

2 noyabr 2024-cü il, şənbə
№ 203 (6789)
Qiyməti 60 qəpik

# Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilir



Bax səh. 2

# Yüksək humanizm və milli mədəniyyətimizə böyük qayğı

Bax səh. 3

# Paytaxt qonaqlarını səbirsizliklə gözləyir...

Bax səh. 4

## Uçot dərəcəsi sabit saxlanılıb



Bax səh. 3

## Milli Məclisin iclasında... 9 məsələ müzakirə edilərək qəbul olunub

Bax səh. 4

## UNESCO-dan ölkəmizə qarşı növbəti qərəz...




Bax səh. 6

## Qətiyyət, iradə və prinsipiallıq...

Otuz illik mübarizə, səbr və əzmin gücü, İlham Əliyevin rəhbərliyi və ordumuzun şücaəti ilə Qarabağ işğaldan azad edildi. Bu gün həmin torpaqlara yeni bir həyat vermək üçün bütün qüvvələr səfərbər edilib. Dövlətimiz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan yeni mərhələyə qədəm qoyub. Dağılan şəhərlərimizin, məhv edilməyə çalışılan tarixi irsimizin bərpası istiqamətində mühüm işlər davam etdirilir.

Qarşımıza qoyulmuş hədəflərin reallaşdırılmasında "Böyük Qayıdışı" təmin edən infrastrukturun yaradılması ön plana çəkilib. Bu infrastruktur hazırlanarkən mütərəqqi beynəlxalq təcrübəyə istinad olunub. Bundan başqa, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb.

**Dövlətin uğurlu siyasətinin göstəricisi**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov bildirib ki, İlham Əliyevin rəhbərliyi altında torpaqlarımız...

Bax səh. 5

## Olivye diplomatik etiket qaydalarını aşır

Fransa Azərbaycana qarşı qərəzli mövqeyini davam etdirir. Rəsmi Paris Ermənistanın maraqlarına xidmət edərək ölkəmiz haqqında böhtan kampaniyası aparır. Fransanın Ermənistandakı səfiri Olivye Dekotini də diplomatik etiket qaydalarını unudaraq dəfələrlə Azərbaycana qarşı yalan və böhtanlardan ibarət fikirlər səsləndirib. Halbuki, onun vəzifəsi təmsil etidiyi ölkə ilə səfir kimi çalışdığı dövlətin əlaqələrinə xidmət etməlidir. Amma Dekotini vəzifə səlahiyyətlərini aşaraq Ermənistanın "vəkili" funksiyasını yerinə yetirməkdədir.

Belə ki, o, bugünlərdə Ermənistanın "Hetq" media qurumuna müsahibəsində Azərbaycanın əleyhinə əsassız iddialar səsləndirib. Dekotini müsahibəsində iddia edib ki, guya Qarabağın bütün erməni əhalisi qaçmağa məcbur olub: "Deyirəm "məcbur olub", çünki bu könüllü qərar deyildi. Doqquz aylıq blokadadan və "hərbi hücumdan" sonra bu könüllü qərar ola bilməzdi. Xüsusilə 5 oktyabrda Frankofoniya Beynəlxalq Təşkilatı tərəfindən qəbul edilmiş qətnamədə qeyd olunurdu ki, bu insanlar köçməyə məcbur edilmişdi. Fransa 2023-cü ildə "Dağlıq...

Bax səh. 5

## Almaniya Yunanıstana təzminat ödəyəcəkmi?

İkinci Dünya müharibəsindən sonra Almaniya nasistlərin müxtəlif xalqlara və dövlətlərə vurduğu ziyana görə böyük həcmdə təzminat ödəyib. Bununla belə, Almaniyaya qarşı təzminat tələb edən ölkələr hələ də var. Onlardan biri Yunanıstandır. Rəsmi Afina 1941-ci ildən 1944-cü ilədək Yunanıstanı işğal altında saxlayan alman ordusunun ölkəyə vurduğu ziyana görə təzminat tələbini uzun müddətdir davamlı olaraq gündəmə gətirir. Bugünlərdə Afinada səfərdə olan Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Yunanıstan Prezidenti Katerina Sakelaropulunun İkinci Dünya müharibəsində alman ordusunun bu ölkəyə vurduğu zərərlərə görə təzminat tələbini cavablandırıb. Dövlət başçılarının görüşündən sonra keçirilən mətbuat konfransında Yunanıstan prezidenti Hitler Almaniyasının ölkəsindən məcburən aldığı və bu günədək qaytarmadığı kreditlərin və müharibə təzminatının ödənilməsinin vacibliyini qeyd edib.

Frank-Valter Ştaynmayer isə bu tələbə cavabında Almaniyanın İkinci Dünya müharibəsi zamanı törətdiyi qəddarlığı qəbul etdiklərini və bunun məsuliyyətini daşıdıqlarını vurğulayıb. Lakin o, Yunanıstanın tələbi ilə...

Bax səh. 7

## Keçmişdə qalmış gələcək

On yeddinci yüzillik Avropada yeni dünyaya, yeni tarixə keçid əsridir. Həm ictimai-siyasi, həm də elmi-mədəni sahədə bir sıra kəşflərin, ixtiraların - məsələn, Con Lokkun liberalizm siyasi-fəlsəfi nəzəriyyəsinin, Nyutonun fiziki, Keplerin, Qalileyin (Milton İtaliyada olanda onunla görüşmüşdü) astronomik qanunlarının - təsbiti bu dövrə düşür. Fransada növbəti əsrin dünyanı kökündən dəyişəsi maarifçi demokratizminə cığır açan klassisizm sənət cərəyanı məhz bu dönəmdə yaranıb. Təsadüfi deyil ki, həmin dövrdə yaşamış Dekart yeni fəlsəfənin, Milton isə yeni ədəbiyyatın banisi sayılır.

Ancaq Miltonun boynuna bu missiya özündən xəbərsiz qoyulub. Məsələ burasındadır ki, Con Milton qatı bir xristian kimi öz dininin, peyğəmbərinin adını bir daha ucaltmaq üçün, Tanrıya sədaqətini sübuta yetirmək üçün bir növ əbədi ibadətə tən gələsi bir əsər yazmağı qarşısına məqsəd qoymuşdu. Bəli, "İtirilmiş cənnət" özündən əvvəlki "İlahi komediya", özündən sonrakı "Faust" kimi məhz Allaha ibadət, göylər səltənətinə merac, ölməz həqiqətləri ziyarət məqsədiylə çıxılmış ruhani səfər, peyğəmbərlik missiyasıdır. Çoxları Şeytanı onun dini-fəlsəfi...

Bax səh. 7



## Okamponu da kampaniyaya "qoşdular"

Bax səh. 6

## 0,7 faiz səs fərqi ilə...

### Moldova Avropa İttifaqını seçdi

Bax səh. 7

# Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilir





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Bakı Dəmiryol Vağzalının və metronun “28 May” stansiyasının qarşısındakı ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına paytaxtımızda Puşkin küçəsinin Azadlıq prospekti ilə birləşməsindən Dilarə Əliyeva küçəsi ilə kəsişməsinədək olan hissəsində - Bakı Dəmiryol Vağzalı və metronun “28 May” stansiyasının qarşısındakı ərazidə görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 3,5 hektar olan ərazidə minik avtomobillərinin hərəkəti ləğv edilərək, müasir tələblərə cavab verən avtobus, piyada və velosiped zolaqları yaradılıb. Köhnə döşəmə örtükləri ləğv edilərək, qranit bordürlər düzülüb və təqribən 22 min kvadratmetr qranit döşəmə örtüyü salınıb. Ərazidə ümumi sahəsi təqribən 2300 kvadratmetr olan yaşıllıq yaradılıb, İtaliyadan gətirilmiş 200-dən çox ağac, 15 mindən çox kol əkilib, işıqlandırma işləri aparılıb, müasir oturacaqlar quraşdırılıb. Həmçinin müasir tikinti norma və qaydalarına cavab verən 2 fəvvarə, 2 dayanacaq inşa edilib, elektrik avtobusları üçün 4 enerjidoldurma məntəqəsi quraşdırılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində ölkəmizin hər yerində, o cümlədən paytaxt Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb.

Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasındadır. Bu xüsusda görülən işlər həm paytaxt sakinlərinin və Bakıya gələn çoxsaylı turistlərin istirahəti üçün müvafiq şəraitin yaradılması, həm də şəhərin ekoloji durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlı olduğunu bir daha nümayiş etdirir. COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində görülən abadlıq və yenidənqurma işləri də ətraf mühitin sağlamlaşdırılmasına mühüm töhfə verir, eyni zamanda, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir.





# Əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial var



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fathudin Ali Mohamedin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı təbriklərini çatdıran Fathudin Ali Mohamed Somali Prezidentinin bu tədbirdə iştirak edəcəyini bildirərək vurğuladı ki, COP çərçivəsində Azərbaycan və Somali dövlət başçılarının keçiriləcək görüşü münasibətlərimizin inkişafına əlavə təkan verəcək.

Səfir əməkdaşlığımızın gündən-günə möhkəmləndiyini qeyd etdi. O, elm və təhsil sahələrində əməkdaşlığa toxundu, hələ sovet dövründə Somalidən çoxsaylı tələbənin Azərbaycanda təhsil aldığını dedi və bu ənənələrin davam etdirilməsində maraqlı olduqlarını vurğuladı.

Prezident İlham Əliyev ticarət, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu qeyd etdi.

Söhbət zamanı müxtəlif səviyyələrdə temasların önəminə toxunuldu, beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımızdan məmnunluq ifadə olundu.

# İspaniya Hökuməti COP-un təşkilində Azərbaycan Prezidentinin şəxsi təşəbbüsünü yüksək qiymətləndirir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də İspaniya Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristina Latore Sançonun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Valensiya regionunda baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı bir daha başsağlığı verdi və bununla əlaqədar İspaniya Hökumətinin Sədri Pedro Sançezə məktub göndərdiyini qeyd etdi.

Səfir başsağlığına və məktuba görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

O, Azərbaycanın COP29-a ev sahibliyi etməsinin və sədrliyinin, həmçinin ölkəmizin iqlim dəyişmələri prosesindəki mübarizəyə töhfə vermək əzminin yüksək qiymətləndirildiyini vurğuladı, bu tədbirin Azərbaycanda uğurla keçiriləcəyinə əminliyini ifadə etdi.

Kristina Latore Sanço bildirdi ki, İspaniya Hökumətinin Sədri COP-un təşkilində Azərbaycan Prezidentinin şəxsi təşəbbüsünü yüksək qiymətləndirir. Səfir iqlim dəyişmələri ilə bağlı mübarizə işində dövlətimizin başçısının fəaliyyətini qeyd edərək, ümumilikdə COP29 kimi mühüm tədbirin təşkilinə görə Azərbaycan tərəfinə və şəxsən dövlətimizin başçısına İspaniya Hökuməti adından minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev COP29-un keçirilməsi ilə bağlı hazırlıq işlərinə bir ildən də az vaxtın olmasına baxmayaraq bütün işlərin yüksək səviyyədə təşkil edilməsi üçün Azərbaycan tərəfinin böyük səy göstərdiyini dedi.

Dövlətimizin başçısı İspaniya Hökumətinin Sədrinin COP29-da iştirakından məmnunluğunu bildirərək qeyd etdi ki, bu, İspaniya tərəfindən hökumət sədri səviyyəsində ölkəmizə ilk səfər olacaq.

Səfər çərçivəsində keçiriləcək görüşlərin ikitərəfli münasibətlərimizin inkişafına yeni təkan verəcəyinə ümidvarlıq ifadə olundu.

Azərbaycanın füsunkar ölkə və Bakının çox gözəl şəhər olduğunu deyən səfir ölkəmizdən xoş təəssürat aldığını bildirdi.

Görüşdə Azərbaycanla İspaniya arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi, bu xüsusda aidiyyəti dövlət qurumlarının iştirakı ilə işçi qrupunun yaradılması məsələsi qeyd olundu. Ölkələrimiz arasında iqtisadiyyat, ticarət, turizm, energetika və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğu vurğulandı. Orta Dəhlizin İspaniya şirkətlərinin region ölkələri ilə əlaqələrinin inkişafı üçün əlverişli perspektivlər açdığı qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Zəfər ayının 2-ci günü...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

**Vətən müharibəsinin 37-ci günü**
**02.11.2020**

• Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün tviter hesabında bildirib.




• Prezident İlham Əliyev Türkiyənin keçmiş Baş naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

• Döyüş əməliyyatları əsasən cəbhənin Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmənin xeyli sayda canlı qüvvəsi, dörd ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, on ədəd müxtəlif tipli topu, üç ədəd sursatla dolu yük maşını və beş ədəd digər avtomobil texnikası sıradan çıxarılıb.

• Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində Ermənistan silahlı qüvvələrinin bölmələri hücum etməyə cəhd göstərib. Döyüş nəticəsində canlı qüvvə sarıdan 30-dək itki verən düşmən Ermənistan ərazisinə çəkilməyə məcbur edilib. Mövqelərimizə hücum etməyə cəhd göstərən düşmənin Su-25 döyüş təyyarəsi bölmələrimizin şəxsi heyətinin sayıqlığı nəticəsində vurulub.

• • Ermənistan silahlı qüvvələrinin dörd ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, bir ədəd “KUB” zenit-raket kompleksi, daimi dislokasiya məntəqəsi, səngər və atəş mövqelərində yerləşən canlı qüvvəsi dəqiq zərbələrlə məhv edilib.

• Müdafiə Nazirliyi torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edən qəhrəmanlarımızın göstərdikləri şücaətlər barədə videoçarx paylaşıb.

**Vətən müharibəsinin 38-ci günü**
**03.11.2020**

• Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin xeyli sayda canlı qüvvəsi, dörd ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, bir ədəd KUB zenit-raket kompleksi, doqquz ədəd müxtəlif tipli topu və iki ədəd sursatla dolu yük maşını sıradan çıxarılıb.

• Prezident İlham Əliyevlə Rusiya Prezident Vladimir Putin arasında telefon danışığı olub.

• Cəbhədə uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

• Azərbaycan Respublikasının Zəngilan rayonu istiqamətində Ermənistan ilə dövlət sərhədində düşmənin kəşfiyyat-diversiya qrupu zərərsizləşdirilib.

• Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin Xankəndi yaxınlığında yerləşən iki sursat anbarının məhv edilməsinin videogörüntüsünü yayıb.

• Cəbhənin Xocavənd istiqamətində gedən döyüşlərə cəlb edilən Ermənistan silahlı qüvvələrinin 2-ci motoatıcı alayının xeyli sayda şəxsi heyət və döyüş texnikası məhv edilib.

• Cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətində hücuma keçməyə cəhd göstərən düşmən ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur edilib.

• Düşmənin snayper qrupu və əlahiddə zirehli tank taborunun komandiri məhv edilib.

• Ermənistanın mülki əhaliyə qarşı istifadə etdiyi qadağan olunmuş fosforlu top mərmiləri ANAMA tərəfindən partlayış yolu ilə zərərsizləşdirilib

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən noyabrın 3-dək 91 mülki şəxs həlak olub, 405 nəfər xəsarət alıb, 2488 ev, 97 yaşayış binası və 461 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

**Vətən müharibəsinin 39-cu günü**
**04.11.2020**

• Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün tviter hesabında bildirib.




• Prezident İlham Əliyev İtaliyanın “La Repubblica” qəzetinə müsahibə verib.

• Döyüş əməliyyatları müxtəlif intensivliklə cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin xeyli sayda canlı qüvvəsi, iki T-72 tankı, üç D-30 topu, “Zastava M-55” zenit qurğusu, bir taktiki PUA-sı, üç hərbi yük maşını sıradan çıxarılıb.

• Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma cəhd edən düşmən şəxsi heyət və hərbi texnika baxımından itkilər verərək geri çəkilib. Ermənistan hərbi birləşmələrinin alay komandiri, tabor komandiri, snayper qrupu məhv edilib.

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Ermənistan silahlı qüvvələrinin “M-55” zenit qurğusu dəqiq atəşlə vurulub.

• Ermənistan ərazisindən Zəngilan istiqamətindəki bölmələrimizə qarşı diversiya cəhdinin qarşısı alınıb.

• Ermənistan ordusunun təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 4-dək 91 mülki şəxs həlak olub, 405 nəfər xəsarət alıb, 2734 ev, 98 çoxmənzilli yaşayış binası və 500 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

# 10-cu görüş



2024-cü il noyabrın 1-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın onuncu görüşü keçirilib.

Yuxarıda qeyd olunan komissiyaların birgə fəaliyyəti haqqında 2024-cü il avqustun 30-da imzalanmış Əsasnamənin 7-ci maddəsinə uyğun olaraq, görüş zamanı Tərəflər həmin Əsasnamənin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların onların dövlətləri tərəfindən yerinə yetirilməsi barədə bildirişləri mübadilə etdilər.

Əsasnamənin 7-ci maddəsinin bu cür prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı gündə onun qüvvəyə minməsini təsbit etməsini nəzərə alaraq, Tərəflər vurğuladılar ki, sözügedən Əsasnamə 2024-cü il noyabrın 1-də qüvvəyə minir.

Tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ətrafında fikir mübadiləsi apardılar.

Tərəflər delimitasiya işlərinin görülməsinin qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə etdilər.

Tərəflər növbəti görüşün keçirilməsinin tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəldilər.

Komissiyaların görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan ayrıca olaraq nəqliyyat kommunikasiyaları məsələlərini müzakirə etdilər.

# Yüksək humanizm və milli mədəniyyətimizə böyük qayğı

Dünyadakı hazırkı mənzərə fonunda ölkələrin dövlət siyasətində humanizm prinsiplərinin önə çəkilməsi, qloballaşmanın yaratdığı təhdidlər nəzərə alınmaqla milli mədəniyyətlərə diqqət və qayğının artırılması heç vaxt olmadığı qədər mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr xüsusi diqqət çəkir. Belə layihələr bir qayda olaraq həssas qruplardan olan insanları əhatə edir və milli mədəniyyətimizin yad təsirlərdən qorunmasını, daha da zənginləşdirilməsini, inkişafını hədəfləyir. Mehriban xanım Əliyevanın qeyd olunan istiqamətlərdə fəaliyyəti davamlı səciyyə daşıyır. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və ailə üzvlərinin elə bugünlərdə Bakının Xətai rayonundakı Alim Məmmədov adına körpələr evi-uşaq bağçasının təmirdən sonra yenidən istifadəyə verilməsi tədbirinə qatılmaları, həmçinin Talassemiya Mərkəzini ziyarət etmələri, Azərbaycan Dövlət Pantomim Teatrının binasında mövcud vəziyyətlə tanış olmaları bunun əyani təsdiqidir.

## Dünyaya verilən humanizm mesajları

Belə bir deyim var: Dünyanı gözəllik xilas edəcək. Mehriban xanım Əliyevanın timsalında isə bu ifadəni aşağıdakı kimi dəyişmək mümkündür: Dünyanı gözəllik və xeyirxahlıq xilas edəcək. Mehriban xanım Əliyeva bayramlarda bir qayda olaraq xüsusi qruplardan olan uşaqların əhatəsində olur, onlar üçün klonların, sevilən müğənnilərin iştirakı ilə şənliklər təşkil edir, internat məktəblərinə baş çəkir, səhiyyə ocaqlarına gələrək daun sindromlu, talassemiyalı xəstələri yoluxur. Onun ana nəvazişinə həsrət qalan uşaqlar üçün tort bişirib hədiyyə etdiyi də minnətdarlıq hissi ilə xatırlanır. Bütün bunlarla Mehriban xanım Əliyeva cəmiyyətə humanizm mesajları ötürür, insanlara mərhəmətli olmağa, başqalarının ağrı-acısını, kədərini özününkü kimi qəbul etməyə, xoş günlərin sevincini paylaşmağa çağırış edir. Məhz bu nümunədə həyat gözəldir və yaşamağa dəyər!

Oktyabrın 31-də Talassemiya Mərkəzində olarkən səhiyyə naziri Teymur Musayev Birinci vitse-prezidentə və ailə üzvlərinə Mərkəzdə yaradılan şərait barədə məlumat verib.














Mehriban Əliyeva tibb müəssisəsindəki transplantologiya şöbəsində, yeni açılan reanimasiya şöbəsində və böyüklər üçün stasionar şöbədə olub, burada müalicə alan uşaqlarla, tibb işçiləri ilə söhbət edib, müalicə prosesinin gedişi ilə maraqlanıb.

Mehriban Əliyeva Heydər Əliyev Fondunun Mərkəzin fəaliyyətinə və ümumiyyətlə, səhiyyəyə daim önəm verdiyini bildirib.

Qeyd edək ki, tibb müəssisəsində görülən işlər, aparılan islahatlar, burada müalicə alan xəstələrin səhhəti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən daim diqqət mərkəzində saxlanılır. Fondun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa edilən Talassemiya Mərkəzində xəstələrə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi, Mərkəzin maddi-texniki bazasının gücləndirilməsi üçün görülən tədbirlər talassemiya xəstəliyinin profilaktikasında əhəmiyyətli rol oynayır.

Xatırladaq ki, 2009-cu ildən istifadəyə verilən Talassemiya Mərkəzi Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılmasına, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün könüllü donor xidmətinin inkişaf etdirilməsinə, talassemiyanın yayılmasının qarşısının alınması istiqamətində əhalinin maarifləndirilməsinə və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

## Uşaqların sağlam və xoşbəxt böyümələri naminə

İndiyədək Heydər Əliyev Fondunun icra etdiyi təkcə "Uşaq evləri və internat məktəblərinə dəstək" layihəsi çərçivəsində 40-dan çox internat və uşaq evi yenidən qurulub. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir neçə "Məzun evi" tikilərək uşaq evləri və internat məktəblərinin məzunu olan gənclərin istifadəsinə verilib. Bütövlükdə bu binalarda 365 gənc hər cür rahatlığı olan mənzillərlə təmin olunub. Bakının Xətai rayonundakı Alim Məmmədov adına körpələr evi-uşaq bağçası da oktyabrın 31-də təmirdən sonra yenidən istifadəyə verilib. Uşaq bağçasının direktoru Liya Mecidova Birinci vitse-prezidentə və ailə üzvlərinə bağçada görülən işlər barədə məlumat verib.

Bildirilib ki, 1958-ci ildə inşa olunan Alim Məmmədov adına körpələr evi-uşaq bağçası ötən müddətdə istismara yararsız vəziyyətə düşdüyünə görə təmirə ehtiyac yaranmışdı. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, körpələr evi-uşaq bağçası müasir tələblər səviyyəsində təmir olunub.

Yüz yerlik körpələr evi-uşaq bağçası zəruri avadanlıq və ləvazimatlarla təmin olunub. Bu məktəbəqədər müəssisədə uşaqlar 5 qrup üzrə təhsil alırlar.

Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb, uşaqlar üçün oyun meydançası yaradılıb.

Qeyd edək ki, ölkəmizdə uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə xüsusi qayğı göstərilir. Uşaq bağçalarının yenidən qurulması ilə bağlı həyata keçirilən layihələr bu baxımdan mühüm rol oynayır.

## Milli mədəniyyətimizin hamisi

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətindən bəhs edərkən onun Azərbaycan mədəniyyətinin inkişafı üçün göstərdiyi xidmətləri xüsusi olaraq vurğulamaq lazımdır. Çünki Azərbaycanın birinci xanımı ölkəmizin müstəqilliyinin ilk dövrlərindən etibarən milli mədəniyyətimizin hamisi kimi çıxış edərək onun qorunması və inkişafı istiqamətində geniş fəaliyyət göstərir. Milli mədəniyyətimizin ən mühüm qollarından olan muğam sənəti məhz Mehriban xanım Əliyevanın xüsusi diqqəti sayəsində hazırda özünün yeni bir intibah dövrünü yaşayır. Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan albomlar, mütəmadi olaraq keçirilən festivallar, Bakıda və bölgələrdə yaradılan mərkəzlər respublikamızda muğama böyük maraq oyadıb. Hələ 1995-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis olunub. Mehriban xanım Əliyeva 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə Azərbaycan, ingilis və rus dillərində çap olunan "Azərbaycan - İrs" jurnalını təsis edib. Jurnal dünyanın onlarla ölkəsində bir neçə dildə yayımlanıb.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mütəmadi olaraq xarici ölkələrdə Azərbaycan mədəniyyətinin təbliğinə yönələn tədbirlər həyata keçirir. Onun təşəbbüsü ilə Fondun Azərbaycanın dünyada daha yaxından tanıdılması istiqamətində həyata keçirdiyi layihələr sırasında "Bakıya uçuş. Müasir Azərbaycan İncəsənəti" sərgisini isə xüsusi vurğulamaq lazımdır. İlk dəfə 2012-ci ilin yanvarında Londonda açılan bu sərgi iki il ərzində Paris, Berlin, Moskva, Roma və Vyanada da təşkil edilərək yerli sakinlərin böyük marağını cəlb edib.

Heydər Əliyev Fondu qədim tarixi abidələrin bərpasına və qorunmasına da xüsusi diqqət ayırır. Məsələn, Fondun dəstəyi ilə 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması tarixi keçmişimizi qoruyub saxlamağa, ölkəmizi turizm mərkəzlərindən birinə çevirməyə xidmət edir.

Oktyabrın 31-də isə Birinci vitse-prezident Mehriban Əliyeva və ailə üzvləri Azərbaycan Dövlət Pantomim Teatrının binasında mövcud vəziyyətlə tanış olublar. Birinci vitse-prezident Mehriban Əliyevaya və ailə üzvlərinə teatr haqqında məlumat verən mədəniyyət naziri Adil Kərimli bildirib ki, respublikamızın tanınmış teatr kollektivlərindən olan Azərbaycan Dövlət Pantomim Teatrı 1994-cü ildə teatr-studiya kimi yaradılıb. Studiya altı il müddətində Gənc Tamaşaçılar Teatrının nəzdində fəaliyyət göstərib. 2000-ci il martın 6-da kollektivə dövlət statusu verilib. 2005-ci ildən isə Azərbaycan Dövlət Pantomim Teatrı keçmiş "Şəfəq" kinoteatrının binasında yerləşdirilib.

Otuz ildən artıq dövrdə Pantomim Teatrında bir çox müəlliflərin əsərləri səhnələşdirilib. Teatrın bu növünün əsas üstünlüklərindən biri onun üçün dil baryerinin olmamasıdır. Ötən müddət ərzində kollektiv Almaniya, Avstriya, Bolqarıstan, İsveçrə, Gürcüstan, Qazaxıstan, Mərakeş, Rusiya və digər ölkələrdə Azərbaycan mədəniyyətini uğurla təmsil edib.

Bu gün Pantomim Teatrı ən çox ziyarət olunan və böyük tamaşaçı məhəbbəti qazanan mədəniyyət ocaqlarımızdan biridir.

Qeyd edilib ki, Azərbaycan Dövlət Pantomim Teatrının hazırda yerləşdiyi bina 1900-cü ildə inşa olunub və yerli əhəmiyyətli memarlıq abidələri siyahısındadır.

Mövcud vəziyyətlə tanışlıq zamanı binada görülməli olan zəruri təmir işləri barədə də məlumat verilib.

*Mübariz ABDULLAYEV*

# Uçot dərəcəsi sabit saxlanılıb

## İnflyasiya gözləntiləri faiz dəhlizinin dəyişməz qalmasında əsaslı rol oynayıb

Mərkəzi Bankın (MB) noyabrın 1-də uçot dərəcələri ilə bağlı açıqladığı yeni qərara əsasən, uçot dəhlizinin aşağı həddi 6,25 faiz, yuxarı həddi isə 8,25 faiz həddində dəyişməz saxlanılıb. MB faiz qərarını qəbul edərkən bir neçə ssenarini əsas götürüb ki, onların sırasında inflyasiya amili ilk yerdə dayanır. Belə ki, faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəflə müqayisəsi, qiymət indeksi amillərinin dinamikası və risk balansının qiymətləndirilməsi nəzərə alınmaqla yekun faiz qərarı verilib. Nəticədə son 3 ayda uçot və faiz dərəcələrinin parametrlərində heç bir dəyişiklik edilmədən sabit pul siyasəti yürüdülməkdədir. Sabit uçot dərəcəsi siyasəti ilə bağlı qərarlar ona dəlalət edir ki, ölkəmizdə inflyasiya amilləri nəzarət edilən səviyyədədir və artım riski yoxdur. Belə ki, istehlak qiymətləri indeksinin artıb-azalması fonunda müəyyənləşən faiz dəhlizinin hazırkı çərçivəsi qiymət diaqramının yuxarı səmtə fokuslanmadığını təsdiqləyir.

## İdxal inflyasiyasının təsirləri azalıb...

Uçot dərəcələrinin müəyyənləşməsində xüsusi rol oynayan inflyasiyanın mövcud çərçivəsinin formalaşmasına bir neçə amil ciddi təsir göstərir ki, başlıca fundamental faktorlar kimi daxili və xarici amillərdir. Ötən 9 ayda həm daxili amillər, həm də xarici amillər ümumilikdə istehlak mallarının qiymətlərinin sabitliyinə təsirlərini göstərib. Belə ki, inflyasiyanın strukturunda 60-70 faiz yer alan xarici amil daha ümidverici olub və cari ilin ötən dövründə dünya üzrə əmtəə qiymətləri indeksi aşağı düşməkdə davam edib. Xüsusilə də iyun-avqust ayında mal və xidmətlərin dəyəri 9,2 faiz, o cümlədən enerji qiymətləri üzrə 11,8 faiz ucuzlayıb və nəticədə idxal inflyasiyası təzyiqləri də azalıb. İstehlak qiymətləri indeksinin düşməsində xarici amillərlə yanaşı, daxili faktorun təsirləri də xüsusi rol oynayıb, əksər qida mallarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib və 2024-cü ilin yanvar-sentyabr aylarında inflyasiya əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,5 faiz çərçivəsində formalaşıb.

## Mərkəzi Bankın yenilənmiş inflyasiya proqnozları...

Mərkəzi Bank inflyasiya ilə bağlı yenilənmiş proqnozlarını da açıqlayıb. Yenilənmiş oktyabr proqnozlarına görə, ölkədə illik inflyasiya 2024-cü ilin sonuna 5,1 faiz, 2025-ci ilin sonunda isə 5,8 faiz civarında gözlənilir. Bu rəqəmlər iyun ayında açıqlanmış inflyasiya proqnozlarından təxminən 0,2-0,5 faiz-bənd çoxdur. İnflyasiya proqnozunun artırılma istiqamətində dəyişdirilməsi əsasən manatın nominal effektiv məzənnəsinin daha aşağı templə möhkəmlənməsi gözləntisi və eləcə də qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul və xidmətlərin qiymət və tariflərində edilən dəyişikliklərlə bağlıdır. Tənzimlənən qiymətlərdə artımın inflyasiya proqnozuna birbaşa və dolayı artırıcı təsiri 1,5 faiz bəndi gözlənilir ki, bunun da 1 faiz bəndi 2024-cü ildə reallaşa bilər.

Bütün bu sabit göztəriclərə baxmayaraq, inflyasiya ilə mübarizə tədbirləri prioritet faktor kimi diqqətdə saxlanılacaq və iqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun bütün iqtisadi qurumların bu prosesə cəlb edəcək. MB mövcud monetar şərtlər çərçivəsində anti-inflyasiya tədbirlərinə dəstəyini davam etdirəcək, eyni zamanda inflyasiyanın hədəf diapazonu daxilində saxlanılması və inflyasiya gözləntilərinin sabitləşdirilməsi üçün hökumətlə koordinasiyalı şəkildə çalışacaq.



## Hökumətin qərarı müsbət nəticə verib...

Qeyd edək ki, anti-inflyasiya tədbirləri üzrə yetkin çərçivə ötən ilin ortalarında hazırlanıb. Nazirlər Kabinetinin 15 iyul 2023-cü il tarixli sərəncamına əsasən, ölkədə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəyə endirilməsinin təmin edilməsi, inflyasiya proseslərinin nəzarətdə saxlanılması, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi məqsədilə tədbirlər planı müəyyənləşib. Həmin hədəf istiqamətləri üzrə iqtisadi qurumların birgə səyi nəticəsində 2023-cü ildə qiymətlərin azaldılmasına nail olunub. Belə ki, təxirəsalınmaz tədbirlərə uyğun olaraq, iqtisadi komanda tərəfindən bir sıra iqtisadi alətlərdən istifadə olunub, institusional və hüquqi addımlar atılıb. Kənd təsərrüfatı və ərzaq məhsulları ilə əlaqəli sahələr üzrə gömrük rüsumları, vergi güzəştlərinin verilməsi, bir sıra xərclərin optimallaşdırılması, həmçinin monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi istiqamətində tədbirlər görülüb ki, bu da müəyyən səmərə verib. Nəticədə 4 illik narahatedici inflyasiya rəqəmi 2023-cü ilin yekununda birrəqəmli həddə endirilib.

Bu kursun davam etdirilməsi sayəsində 2024-cü ildə qiymət indeksi son illərin ən aşağı səviyyəsinə düşüb və ötən aylarda 1-3 faiz intervalı saxlanılıb. Mövcud strateji hədəfə uyğun olaraq, hökumət inflyasiya ilə mübarizə tədbirlərini 2025-ci ildə də prioritet kimi diqqətdə saxlamaqla əsas çərçivə prioritetləri üzrə bütün iqtisadi qurumları bu prosesə cəlb edib.

## Anti-inflyasiya tədbirləri davam etdiriləcək...

Ona görə də cari ildə və qarşıdakı ildə inflyasiyanın əhalinin alıcılıq qabiliyyətinə və real gəlirlərinə mənfi təsirlərinin azaldılması, vətəndaşların rifahının təmin olunması və həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi son illər büdcə siyasəti qarşısında duran əsas vəzifələrdən biri kimi xüsusi diqqət mərkəzində saxlanılacaq. Hökumətin tapşırıqlarına uyğun olaraq əhalinin sosial rifahının, real gəlirlərinin və alıcılıq qabiliyyətinin qorunması üçün son iki ildə davam etdirilən sosial siyasət tədbirləri yenə də prioritet məsələlərdən olacaq. Həmçinin, daxili bazarda sağlam rəqabət mühitinin təmin olunması, qiymətlərin monitorinqi, inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyədə saxlanılması istiqamətində zəruri işlər davam etdiriləcək. Süni qiymət artımlarının qarşısının alınmasında ən güclü hüquqi mexanizmlərdən biri kimi 2024-cü il iyulun 1-dən qüvvəyə minmiş Rəqabət Məcəlləsinin icrası da mühüm rol oynayacaq.

Ümumilikdə, mövcud monetar siyasət inflyasiyanın hədəf diapazonu daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşdirilməsinə yönəlib.

Qeyd edək ki, Mərkəzi Bank faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarı dekabrın 18-də açıqlayacaq. Bu dövrə qədər inflyasiyanın gözlənilən ümidverici və qənaətbəxş olduğu halda uçot dərəcəsinin aşağı salınması istisna deyil.

*Elbrus CƏFƏRLİ*



# Milli Məclisin iclasında...

## 9 məsələ müzakirə edilərək qəbul olunub

*Nardar BAYRAMLI*

Noyabrın 1-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyinə 9 məsələnin daxil edildiyini bildirib. Əvvəlcə millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər.

Qərbi Azərbaycan İcmasının rəhbəri, deputat Əziz Ələkbərli deyib ki, bu günlərdə sonuncu deportasiya zamanı tərk etmək məcburiyyətində qaldığımız Qərbi Azərbaycan ərazisindəki 300-ə yaxın yaşayış məntəqəsinə aid 600 qəbiristanlıqla bağlı tədqiqatımızı başa vurmuşuq. Bu qəbiristanlıqlardan 450-dən çoxu yer üzündən tamamilə yox edilib. Onun sözlərinə görə, bu qəbiristanlıqlardan 150-yə yaxınının dağıdılmış qalıqları müşahidə edilir: “600 qəbiristanlıqdan cəmi ikisi - Amasiya rayonunun Qaranamaz və Kalinino rayonunun Cücəkənd qəbiristanlıqları hələlik salamatdır. Təsəvvür edin, 600 qəbiristanlıqdan cəmi 2-si! Hazırda 3 qəbiristanlıq üzərində iş gedir: Vedi rayonunun Şidli, Zəngibasar rayonunun Sarvanlar və Rəncbər kəndlərinin qəbiristanlıqları üzərinə qum və torpaq verilərək izləri itirilməkdədir. Basarkeçər rayonunun 4 kəndində - Sarıyaqub, Daşkənd, Yuxarı Şorca və Canəhməd kəndlərində qəbiristanlıq ərazilərində tanklar üçün iri hərbi istehkamlar salınıb. Yuxarı Şorca və Canəhməd kəndlərindəki istehkamlar lap təzədir - 2024-cü ilin əvvəllərində salınıb. Basarkeçərin Zod və İnəkdağı kəndlərində də eyni vəziyyətdir”.

Ə.Ələkbərli bu arayışların peyk görüntüləri və digər təkzibolunmaz sübutlar əsasında hazırlandığını diqqətə çatdırıb. Bütün bunlar bəşər tarixində analoqu olmayan vandalizm hərəkətidir.Təkcə Ermənistan günahkar deyil, həm də onu bu cinayətlərə sürükləyən, özünün Azərbaycanafob siyasətindən bu gün də əl çəkmək istəməyən dövlətlər günahkardır.

İclasda ilk olaraq “Əhalinin sağlamlığının qorunması haqqında” və “Tibbi sığorta haqqında” qanunlarda dəyişiklik edilməsi (ikinci oxunuş) məsələsinə baxılıb. Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, layihə əhalinin dərman vasitələrinə olan ehtiyaclarının qarşılanması, əlçatanlığın və keyfiyyətin artırılması, habelə sığortaolunanların maraqlarının qorunmasına hüquqi zəminin yaradılması məqsədilə hazırlanıb.

Komitə sədri həmçinin deyib ki, onkoloji xəstəliklərin icbari tibbi sığortadan kənarda qalması bizi narahat edir. Onun sözlərinə görə, kadr çatışmazlığı məsələsində də problemlər var: “Amma bunun həlli üçün çalışılır. İcbari tibbi sığorta işləyir. Aparılan sorğulara görə əhalinin icbari tibbi sığortadan məmnunluğu artır. Azərbaycanda təyinat sistemi var. Əvvəl Tibbi Universitetini bitirəndə təyinat olurdu, indi isə rezidenturada bu təyinat sistemi tətbiq edilir”.

Daha sonra “Qrant haqqında” Qanunuda dəyişiklik edilməsi (ikinci oxunuş) məsələsi müzakirəyə çıxarılıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, bələdiyyə və qrant arasında uyğunluğun təmin edilməsi üçün gələcəkdə qaydalar hazırlanacaq. O qeyd edib ki, 5000 qeyri-hökumət təşkilatından 105-nin regionlarda fəaliyyət göstərməsi xeyli azdır: “Hesab edirik ki, bölgələrdə qeyri-hökumət təşkilatlarının sayı artmalıdır, orada ictimai siyasi aktivlik yaradılmalıdır”.

İclasda həmçinin, “Daşınar əmlakın yüklülüyü haqqında” Qanunda dəyişiklik edilməsi (ikinci oxunuş), “Arbitraj haqqında” Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi (ikinci oxunuş), “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanunlarda dəyişiklik edilməsi (ikinci oxunuş), “Uşaq hüquqları haqqında” Qanunda dəyişiklik edilməsi (ikinci oxunuş), “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş), “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Qanunda dəyişiklik edilməsi (ikinci oxunuş) məsələləri və gündəlikdə olan digər qanunlar da müzakirə olunub.

Müzakirələrdən sonra gündəlikdə olan bütün sənədlər qəbul edilib.

# Bakı COP29-un qonaqlarını səbirsizliklə gözləyir...

Azərbaycanın ev sahibliyi edəcəyi COP29-a sayılı günlər qalıb. Noyabrda dünyanın nəzərləri yenidən ölkəmizə yönələcək. Tədbirdə hazırda bütün dünyada çox aktual olan iqlim çağırışları müzakirə olunacaq, çıxış yolları axtarılacaq və mühüm qərarlar veriləcək.

Həmişə qlobal təhdidlər qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsi təşəbbüslərindən çıxış edən respublikamızın COP29-a hazırlaşmaqdan ötrü cəmi bir il vaxtı var idi. Ancaq məsuliyyətli dövlət olan Azərbaycan vaxtın az olmasına rəğmən, yüksəksəviyyəli hazırlıq həyata keçirib. Artıq hazırlıq işlərinin son mərhələsidir. Elə bugünlərdə COP29-un keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin 8-ci iclası olub. Bir sözlə, Bakı COP29-un qonaqlarını qarşılamağı səbirsizliklə gözləyir.

## BMT-nin ən böyük tədbiri

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı- COP Konvensiyanın ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın bütün yerlərindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edirlər. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində baş tutub.

Ötən il dekabrın əvvəlində Dubayda keçirilən sonuncu COP28 100 minə yaxın nümayəndəni bir araya gətirib və BMT-nin tarixində ən genişmiqyaslı tədbir kimi yadda qalıb. Konfrans çərçivəsində təşkil edilmiş Zirvə toplantısına 120-dən artıq dövlət və hökumət başçısı qatılıb. Sözügedən tədbirdə ilk dəfə olaraq Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib.

COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edilir. Hər regional qrup üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir. 2024-cü ildə COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna çatıb. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsini təklif edib. Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da öz namizədliklərini irəli sürüblər. Proseslərin gedişində sonuncu iki ölkə öz namizədliyini geri çəkib və nəticədə dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib.

## Beynəlxalq birliyin Azərbaycana olan böyük inamı

BMT-nin ən böyük tədbirlərindən birinə ev sahibliyi hüququ qazanması Azərbaycanın növbəti təntənəli qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. COP29 kimi məsuliyyətli və genişmiqyaslı bir tədbirə ev sahibliyi etmək hüququnun Azərbaycana verilməsi beynəlxalq birliyin ölkəmizə olan böyük inamının ifadəsidir. İndiki dönəmdə hansısa bir ölkəni dünya birliyi üçün cəlbedici edən cəhətlərdən ən önəmlisi onun beynəlxalq imicidir. Bu kontekstdən çıxış edən beynəlxalq təşkilatlar öz tədbirlərini keçirərkən ölkənin imkanları və resursları ilə yanaşı, qlobal miqyasda mövqelərini də nəzərə alırlar.

Eyni zamanda, dünya birliyinin inamı Azərbaycanın beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində qazandığı zəngin təcrübədən qaynaqlanır. İndiyədək Azərbaycanda beynəlxalq təşkilatların çoxlu sayda siyasi, iqtisadi və humanitar mövzularda tədbirləri keçirilib. Beynəlxalq səviyyəli idman yarışlarını, müxtəlif mövzularda forumları, konfransları, müsabiqələri buraya aid etmək olar. Qeyd olunan siyahıda Formula 1 Azərbaycan Qran-Prisini, “Eurovision” mahnı müsabiqəsini, I Avropa və IV İslam Həmrəyliyi Oyunlarını, Bakı Beynəlxalq Humanitar, Mədəniyyətlərarası Dialoq, Qlobal Bakı və Qlobal Media forumlarını, Dini Liderlərin Zirvə toplantısını, Qoşulmama Hərəkatının nazirlər görüşünü və digər tədbirlərin adlarını sadalamaq mümkündür. Həmin tədbirlərdə Azərbaycan özünün yüksək standartlarını təqdim edib və sonradan bu standartlar dünya səviyyəsində qəbul olunub. Şübhəsiz ki, COP29-a uğurla ev sahibliyi etməsi ölkəmizin beynəlxalq səviyyədə nüfuzunu daha da artıracaq.




## Dünya ölkələrinin üzləşdikləri çağırışlar

Hazırda dünya üzrə iqlim dəyişikliyi ilə bağlı çağırışların aktuallığının artması heç də təsadüfi deyil. Ekspertlər kədərli müqayisələr aparırlar. Bildirilir ki, əgər bir vaxtlar qlobal səviyyədə əhali artımına, insanların həyat tərzinə, sosial vəziyyətinə daha çox müharibələr mənfi təsir göstərirdisə, indi burada iqlim dəyişikliyi önə çıxmaqdadır. Dünyanı təhdid edən iqlim dəyişikliyinin qlobal istiləşmə və sürətli sənaye inkişafının nəticəsi olaraq yarandığı bildirilir. Uzun illərdir ki, dünyada artan əhali neft, qaz, kömür yandırır. Eyni zamanda, avtomobillərin sayı sürətlə artır. Bütün bu kimi fəaliyyətlər, həmçinin güclü sənaye inkişafı atmosverə daha çox həcmlərdə tullantıların, karbon qazının buraxılması ilə nəticələnir. Eyni zamanda, qlobal istiləşmənin sürətlənməsi həyəcan təbili çalmağa əsas verir. 2011-2020-ci illər arasında buzlaqların əriməsi əvvəlki 10 illərlə müqayisədə 75 faiz artıb. Təbii fəlakətlərin - isti küləklərin, qasırğaların, yağıntıların, sel və daşqınların sayı əhəmiyyətli dərəcədə artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq bu göstərici 2000 metr dərinliyə qədər çatır.

Fəsadlar da çox ağırdır. Ekstremal hava şəraiti, hidroloji və iqlim hadisələri insan təhlükəsizliyinə, milli iqtisadiyyatlara, şəhər və kənd mühitinə, qida və su təhlükəsizliyinə öz mənfi təsirlərini göstərir. Təəssüf ki, biz belə mənfi təsirlərin statistikasında sürətli artım dinamikasını izləyirik. Ətraf mühitin çirklənməsi, müxtəlif təbiət hadisələri hər il təxminən 13 milyon insanın həyatına son qoyur. Bu gün iqlim dəyişikliyi insanları yoxsulluğa sövq edən və həyat tərzinin yaxşılaşmasına mane olan əsas problemlərdən biri qismində çıxış edir. XXI əsrin ikinci onilliyində (2010-2019) ekologiya ilə bağlı hadisələr hər il orta hesabla 23,1 milyon insanı öz daimi yaşayış yerindən köçmək məcburiyyəti ilə üz-üzə qoyub. Son günlərdə iqlim dəyişmələrinin nəticəsi olaraq sel sularının, intensiv yağan yağışların İspaniya şəhərlərində törətdiyi fəsadlar təhlükənin nə qədər böyük olmasından xəbər verir.

Azərbaycan da qlobal iqlim dəyişikliyindən əziyyət çəkən ölkələr sırasında yer alır. Bir qədər bundan əvvəl “Azərkosmos” “Yaşıl dünya naminə həmrəylik İli”nə həsr olunmuş konfransda qlobal iqlim dəyişikliyinin Azərbaycana təsirinə dair hazırladığı rəqəmsal iqlim platformasını ictimaiyyətə təqdim edib. “Azərkosmos”un peyk görüntülərinə dayanaraq apardığı hesablamalar göstərir ki, ölkədəki su anbarlarının çoxunda azalmalar baş verib. Məsələn, 2017-ci ildə ölkənin ən böyük su anbarı olan Mingəçevir su anbarının güzgü səthinin sahəsi 48 min 259 hektar idisə, ötən il bu rəqəm 46 min 438 hektara enib. Deməli, 2 min hektara yaxın azalıb. “Azərkosmos”un hesablama apardığı Araz su anbarında bu azalma 1 min 800 hektar, Yenikənd su anbarında 74 hektar, Taxtakörpü su anbarında isə 286 hektar olub. Eyni zamanda, Xəzər sahilləri ilbəil geri çəkilir. Təqdim olunan bu kimi faktlar həyəcan təbili çalmağa əsas verir. Azərbaycanın su ehtiyatlarının böyük hissəsinin ölkə hüdudlarından kənarda formalaşması və respublikamızın ərazisinə daxil olanadək çirklənmələrə məruz qalması da bir sıra çətinliklər yaradır.

## Azərbaycanın iki istiqamətdə mühüm hədəfləri

Respublikamız iqlim dəyişikliyi ilə bağlı BMT-nin çağırışlarına fəal şəkildə qoşulan ölkələr sırasında yer alır. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilib. Bütövlükdə, ölkəmizin “yaşıl hədəf” gündəliyi kifayət qədər geniş məzmun kəsb edir. Bu barədə bəhs edərkən iki istiqamətdə qarşıya qoylan hədəfləri xüsusi qeyd edə bilərik:

-İstixana qazlarının miqdarını azaltmaq,

-Enerji transformasiyasına sadiqlik.

COP29-a ev sahibliyi etməsi, şübhəsiz ki, ölkəmiz üçün 2024-cü ilin ən mühüm hadisəsi olacaq. Bunu eyni zamanda respublikamızın yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək mümkündür. Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi bu missiyaya verilən dəyərin təsdiqidir. Bu təşəbbüs sadəcə rəmzi məna daşımır, həmçinin Azərbaycanın müsbət ekoloji dəyişmələr yaratmaq məqsədi daşıyan ölkələr üçün nümunə olmaq istəyidir, eyni zamanda, gələcək nəsillər üçün daha yaşıl və sağlam gələcəyin qurulması istiqamətində öhdəliyini, strateji məqsədlərini və fəal tədbirlərini əks etdirən addımdır. Ölkəmiz yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də təsdiqləyir. Belə ki, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib. Hökumət həmçinin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında davam etməkdə olan yenidənqurma və inkişaf layihələri çərçivəsində prioritet kimi bu əraziləri “sıfır tullantılı zona”ya çevirməyi qarşıya məqsəd qoyub və layihələr də buna uyğun reallaşdırılır.

Qlobal iqlim dəyişmələri fonunda hazırda enerji transformasiyası bütün dünyada çox aktual olan çağırışlardan biridir. COP28 iqlim konfransında qeyd edildiyi kimi, 2030-cu ildə bərpa olunan enerji istehsalı 2,5 dəfə arta bilər. Buna nail olmaq üçün hökumətlər təmiz enerjiyə qoyulan sərmayələrin həcmini artırmalıdırlar. Bu proqnoz Beynəlxalq Enerji Agentliyinin (BEA) bərpa olunan enerji istehsalı üzrə 2024-cü il hesabatında yer alıb.

Hesabatda qeyd olunub ki, ötən il dünyada 2022-ci illə müqayisədə 510 qiqavat bərpa olunan enerji mənbəyi dövriyyəyə qoşulub ki, bunun da 75 faizi günəş enerjisi hesabına təmin edilib. Bu sahədə ən avanqard ölkə Çindir, eyni zamanda, Avropa İttifaqı, ABŞ və Braziliyada da rekord göstəricilər əldə olunub. 2028-ci ilədək qlobal miqyasda bərpa olunan enerji istehsalının həcmi 7 min 330 qiqavata, 2030-cu ilədək isə 11 min qiqavata çatacaq. Təmiz enerji istehsalının 95 faizi günəş və külək enerjisinin payına düşəcək və bu mənbələr elektrik enerjisi istehsalında ən böyük material olan kömürü geridə qoyacaq.

Yeni qlobal çağırışların yarandığı indiki mərhələdə enerji transformasiyası Azərbaycanın da gündəliyində dayanan vacib məsələlər sırasında yer alır. Karbohidrogen resursları ilə zəngin olan respublikamız da elektrik enerjisi istehsalında yaşıl enerjinin xüsusi çəkisinin artırılmasını hədəfləyib. Bu da onunla bağlıdır ki, respublikamız bərpa olunan enerji mənbələri ilə kifayət qədər zəngin bir diyardır. Ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 27000 MVt həcmində qiymətləndirilir. Qeyd edək ki, son illərdə respublikamızda külək enerjisi istehsalı 131 dəfə, günəş enerjisi istehsalı isə 55 dəfə artıb. Ölkəmiz növbəti illərdə bərpa olunan enerjinin ümumi istehlakda payını artırmaq niyyətindədir. Bu sahədə 2030-cu ilədək qarşıya qoyulan hədəf bərpa olunan enerjinin ümumi istehlakda payının 30 faizdən çox artırılmasına nail olmaqdan ibarətdir.

## Ölkəmiz nəticəyə nail olmaq istəyir

Qlobal iqlim dəyişikliyinin fəsadlarının getdikcə artmasının bir səbəbi də dünya birliyinin bir sıra hallarda ortaya adekvat yanaşma, ciddi həmrəylik qoymamasıdır. Məsələ ondan ibarətdir ki, müxtəlif platformalarda iqlim dəyişikliyinin fəsadlarından və potensial təhlükələrindən danışılır, uzun-uzadı müzakirələr aparılır. Qərarlar isə gec qəbul olunur və yaxud adekvatlıq təşkil etmir. Götürək elə kiçik ada dövlətlərinə münasibəti. İqlim dəyişikliyindən təsirlənən digər ölkələrlə müqayisədə okeanda dörd bir tərəfdən su ilə əhatə olunan kiçik ada dövlətlərində vəziyyət daha ciddidir. Bu onlardan ötrü bir mövcudluq məsələsidir. Okenın ortasında bol su heç də xoşbəxtlik anlamında qəbul olunmur. Bu dövlətlər yüksək gəlirli ölkələr sayılsalar da, onlar tez-tez təbii fəlakətlərlə üzləşirlər. Məsələn, itki və zərərlər məsələsi Tuvalu tərəfindən on ildən çoxdur ki, qaldırılır və yalnız keçən il bununla bağlı müəyyən razılığa gəlmək mümkün olub. Ötən il Nyu-Yorkda BMT Baş Assambleyasında müzakirələrdən sonra “Səyahətçilər klubu” ada dövlətlərinin təmsilçilərinə öz hesabatını təqdim edib. Təqdimatda əgər iqlim dəyişikliyinin yaratdığı problemin qarşısı alınmasa, 2070-ci ildə paytaxt şəhər Nassau və adaların hansı vəziyyətdə olacağı nümayiş etdirilib. Adanın 30 faizi suyun altında qalacaq. 2100-cü ildə isə 70 faiz su altında qalacaq.

Azərbaycan COP29-da yeni iqlim maliyyəsi hədəfi ilə bağlı razılaşmaya nail olunmasının vacibliyini önə çəkir. İqlim konfransında “Bakı Sazişi”nin əldə edilməsinin beynəlxalq ictimaiyyətin ümumi nailiyyəti kimi tarixə düşəcəyinə inam böyükdür. Xüsusilə də kiçik ada dövlətlərinə münasibətdə daha səmərəli tədbirlər görülməli, daha həssas yanaşma sərgilənməlidir. Azərbaycanın COP29-a sədrliyi zamanı iqlim dəyişikliyinin inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün yaratdığı problemlərin həlli prioritetlər arasında olacaq. COP29 çərçivəsində həmçinin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə toplantısının keçirilməsi də planlaşdırılır. Azərbaycan COP29 çərçivəsində kiçik ada dövlətlərinə münasibətdə konkret nəticəyə nail olmaq əzmi nümayiş etdirir. Hazırda kiçik ada dövlətləri ilə fəal iş aparılır. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılması planlaşdırılır. Ölkəmizin COP29-un ev sahibi kimi kiçik ada dövlətləri üçün müəyyənləşdirdiyi ciddi gündəliyə diqqət çəkən Prezident İlham Əliyev “Azərbaycan üçün iqlim dəyişikliyi problemdir, onlar üçün isə bu, ekzistensional təhlükədir. Beləliklə, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə və eyni zamanda, beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq. Hesab edirəm ki, COP29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edə biləcəyimiz ən böyük nəticə qarşılıqlı ittihamlara son qoyulması olacaqdır. Biz baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməli, iddialardan əl çəkməli və diqqətimizi övladlarımız və nəvələrimizin yaşamağa davam edəcəyi bu planetdəki həyatla bağlı gündəliyimizə yönəltməliyik”, - deyə vurğulayıb.

*Mübariz ABDULLAYEV*



# Olivye diplomatik etiket qaydalarını aşır

## Fransız səfir Ermənistanın "vəkili" funksiyasını yerinə yetirməkdədir

Fransa Azərbaycana qarşı qərəzli mövqeyini davam etdirir. Rəsmi Paris Ermənistanın maraqlarına xidmət edərək ölkəmiz haqqında böhtan kampaniyası aparır. Fransanın Ermənistandakı səfiri Olivye Dekotini də diplomatik etiket qaydalarını unudaraq dəfələrlə Azərbaycana qarşı yalan və böhtanlardan ibarət fikirlər səsləndirib. Halbuki, onun vəzifəsi təmsil etdiyi ölkə ilə səfir kimi çalışdığı dövlətin əlaqələrinə xidmət etməlidir. Amma Dekotini vəzifə səlahiyyətlərini aşaraq Ermənistanın "vəkili" funksiyasını yerinə yetirməkdədir.

### Səfir Qarabağ ermənilərinin əvəzinə danışır?

Belə ki, o, bugünlərdə Ermənistanın "Hetq" media qurumuna müsahibəsində Azərbaycanın əleyhinə əsassız iddialar səsləndirib. Dekotini müsahibəsində iddia edib ki, guya Qarabağın bütün erməni əhalisi qaçmağa məcbur olub: "Deyirəm "məcbur olub", çünki bu könüllü qərar deyildi. Doqquz aylıq blokadadan və "hərbi hücumdan" sonra bu könüllü qərar ola bilməzdi. Xüsusilə 5 oktyabrda Frankofoniya Beynəlxalq Təşkilatı tərəfindən qəbul edilmiş qətnamədə qeyd olunurdu ki, bu insanlar köçməyə məcbur edilmişdi. Fransa 2023-cü ildə "Dağlıq Qarabağ qaçqınlarına" və onları qəbul edən Ermənistan icmalarına humanitar yardım baxımından ilk donor ölkə olub".

Dekotini Qarabağda guya "erməni dini və mədəniyyət irsinin məhv edilməsindən də narahat olduğunu" deyib.

Əlbəttə, fransız səfirin dedikləri tamamilə yalandır. Çünki bütün dünya şahiddir ki, ermənilər Qarabağı könüllü surətdə tərk ediblər. Azərbaycan hökuməti onlar üçün reinteqrasiya proqramını açıqlayıb. Həmin ermənilər Qarabağdan köçməyə təşviq edən məhz Ermənistan və onun Fransa kimi havadarları olub. Məqsəd isə bu faktdan Azərbaycana qarşı təbliğat aparmaqdır. Digər tərəfdən, dini, tarixi və mədəni abidələri də dağıdan məhz ermənilərdir. Ermənistan 30 il ərzində işğal etdiyi torpaqlarımızda azərbaycanlı izini tamamilə silməyə çalışıblar.



### XİN: Bu, Fransa xarici siyasətinin uğursuzluğunun nəticəsidir

Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, diplomatik etiket qaydalarına əməl etməyi bacarmayan Olivye Dekotininin Ermənistan-Fransa münasibətlərindən daha çox Azərbaycan əleyhinə qarayaxma kampaniyasına köklənməsi ilk növbədə Fransa xarici siyasətinin uğursuzluğunun nəticəsidir. Onun sözlərinə görə, səfirin müsahibəsində Azərbaycan ərazisində işğala və separatçılığa son qoyan tədbirlərin hədəf alınması, Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarına yanlış istinadlar, Ermənistanın "yarımçıq sülh" fikirlərini dəstəkləyən açıqlamalar və bir sıra digər absurd yanaşmalar ilk növbədə Fransa tərəfinin reallıqları necə təhrif etdiyini, bölgədə dayanıqlı və həqiqi sülh quruculuğunda maraqlı olmadığını bir daha nümayiş etdirir. "Fransanın bölgədə eskalasiyanı davam etdirməyə yönələn davranışları və təxribatları bu ölkənin həm münaqişə, həm də postmünaqişə dövründə güddüyü niyyətin və apardığı siyasətin əsl mahiyyətini sübut edib", - deyə Ayxan Hacızadə qeyd edib.

Fransanın indiki mövqeyi Cənubi Qafqazda sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənilərin maraqları naminə bu ölkə beynəlxalq hüquqa hörmətsizlik edir, bəşəri dəyərləri ayaqlar altına atır. Bu, o deməkdir ki, Fransa hökuməti və parlamenti, bu ölkənin ayrı-ayrı siyasi dairələri uzun illərdir açıq irqçi, azərbaycanofob, türkofob və islamofob fəaliyyət nümayiş etdirirlər. Bu yanaşma artıq Fransanın dövlət siyasəti səviyyəsinə çatıb. Eyni zamanda, Fransa parlamentinin qərarları beynəlxalq hüququn normalarına və prinsiplərinə zidd olmaqla, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı qərəzli və ədalətsiz addımdır. Fransa parlamenti hələ 2020-ci ilin noyabrında - Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi zəfərdən qısa müddət sonra o vaxt Qarabağdakı separatçı rejimin tanınmasının zərurəti haqda qətnamə qəbul etmişdi. Eləcə də, ordumuz Qarabağda erməni separatizminin kökünü kəsərək suverenliyimizi tam bərpa etdikdən sonra rəsmi Paris ölkəmizə qarşı qərəzini daha da artırıb. Fransanın Ermənistanı silahlandırması isə Cənubi Qafqazda yeni müharibə təhlükəsi yaradır.

### Rəsmi Parisin gerçək niyyəti

30 il ərzində Ermənistandan və işğal olunmuş ərazilərimizdən qovulan soydaşlarımızın taleyinə biganə qalan Fransa indi əsassız olaraq az sayda erməninin "etnik təmizlənməyə" məruz qalması barədə dezinformasiya yayır. Rəsmi İrəvanın da Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etdiyi halda, Paris mütəmadi olaraq bölgədən könüllü çıxan erməni sakinlərin geri qayıtması üçün canfəşanlıq edir. Eləcə də, Fransa Avropa İttifaqının Müşahidə Missiyası adı altında öz casuslarını Ermənistanla Azərbaycan arasındakı şərti sərhəddə yerləşdirib.

Yeri gəlmişkən, Fransanın Ermənistandakı səfiri Olivye Dekotini dəfələrlə Azərbaycanla sərhədə gəlib, hansısa "təftiş" aparmağa çalışıb. Eləcə də, Ermənistana səfər edən Fransa rəsmiləri və deputatları da Avropa İttifaqının Ermənistandakı müşahidəçilər missiyasının üzvləri ilə birlikdə Azərbaycanla sərhəddə olublar. Bugünlərdə isə missiyanın avtomobil karvanında Aİ-nin bayrağı ilə yanaşı, Fransa bayrağının da olması rəsmi Parisin gerçək niyyətini aşkara çıxarmış oldu.

Göründüyü kimi, Fransa Cənubi Qafqazla bağlı məkrli planlar həyata keçirməyə çalışır. Rəsmi Parisin qərəzli mövqeyi Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə xidmət edir, sülh gündəliyinin həyata keçirilməsinə, iki ölkə arasında münasibətlərin normallaşmasına zərbə vurur.

*Nardar BAYRAMLI*

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*

# Qətiyyət, iradə və prinsipiallıq...

## Azad edilən torpaqlarımıza yeni həyat verilir

Otuz illik mübarizə, səbr və əzmin gücü, İlham Əliyevin rəhbərliyi və ordumuzun şücaəti ilə Qarabağ işğaldan azad edildi. Bu gün həmin torpaqlara yeni bir həyat vermək üçün bütün qüvvələr səfərbər edilib. Dövlətimiz torpaqlarını azad etməklə tarixi inkişafın irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan yeni mərhələyə qədəm qoyub. Dağılan şəhərlərimizin, məhv edilməyə çalışılan tarixi irsimizin bərpası istiqamətində mühüm işlər davam etdirilir.

Qarşımıza qoyulmuş hədəflərin reallaşdırılmasında "Böyük Qayıdış" təmin edən infrastrukturun yaradılması ön plana çəkilib. Bu infrastruktur hazırlanarkən mütərəqqi beynəlxalq təcrübəyə istinad olunub. Bundan başqa, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb.

**Dövlətin uğurlu siyasətinin göstəricisi**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov bildirib ki, İlham Əliyevin rəhbərliyi altında torpaqlarımız işğaldan azad edildikdən dərhal sonra dirçəliş işlərinə başlanması dövlətimizin uğurlu siyasətinin göstəricisidir: "Böyük Qayıdışın ilk qədəmləri kimi Zəngilan rayonunun Ağalı kəndinə, daha sonra Laçın şəhərinə dönüş işğaldan azad edilmiş ərazilərdə sürətli əlverişli iqtisadi və siyasi mühit formalaşdırılmasının bariz göstəricisidir. Daha da gözəlləşən və abadlaşan rayonlarımıza köçən sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. İşğaldan azad edilmiş ərazilərin tam mənada inkişafına nail olmaq üçün birinci növbədə ən böyük təhlükə hesab edilən minaların və partlamamış hərbi sursatın zərərsizləşdirilməsidir.



Bu, çətin bir iş olmaqla bərabər təəssüf ki, həm də uzun müddət tələb edən bir işdir. Bununla həmin ərazilər bütövlükdə tam təhlükəsiz yaşayış və sosial-iqtisadi həyatın bərpası üçün uyğun olacaq.

Strateji əhəmiyyət kəsb edən işlərin çevik həlli və ərazilərin inkişafı üçün Azərbaycanın artıq konkret yol xəritəsi var. Bununla biz həyat əlaməti qaytarılacaq ərazilərimizi ölkənin sosial, iqtisadi, mədəni həyatına bağlayacaq, əhalinin layiqli həyat şəraitini təmin edəcəyik".

**İkinci mərhələ 2040-cı ilə qədər yekunlaşacaq**

S.Məmmədov qeyd edib ki, 2026-cı ilin sonuna qədər "Böyük Qayıdış" proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır: "Bütövlükdə "Böyük Qayıdış" proqramının birinci mərhələsində bütün azad olunmuş şəhərlər də daxil olmaqla 100 yaşayış məntəqəsinin yenidən qurulması və məskunlaşdırılması nəzərdə tutulur. "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası üçün 2022-2026-cı illərdə ümumilikdə təqribən 32 milyard manatdan artıq vəsait tələb olunur.

Hazırda Azərbaycan keçmiş məcburi köçkünlərin "Böyük Qayıdış" layihəsini uğurla həyata keçirməkdədir. "Böyük Qayıdış" proqramının ikinci mərhələsi isə üç fazadan ibarət olmaqla, 2026-2040-cı illəri əhatə edəcək və proses 2040-cı ilə qədər yekunlaşacaq".

**Qarabağa yeni nəfəs...**

Deputatın sözlərinə görə, 44 günlük Vətən müharibəsinin başa çatmasından ötən müddət ərzində Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, bir çox ölkənin bacarmadığı nəhəng layihələri təkbaşına reallaşdırmağa qadirdir: "Heç bir ölkədən yardım almadan viran edilmiş şəhər, qəsəbə və kəndlərə yeni nəfəs vermək Azərbaycan qüdrətli dövlət olduğunu təsdiqləyir. İllər sonra yenidən bu torpaqlarda xoşbəxt ailələr bərəkətli süfrələrin ətrafında toplanacaq, evlər uşaqların şən gülüşləri ilə dolacaq. Biz burada əsrlərdən gələn adət və ənənələri, milli mətbəxin bölgələrimiz üzrə sirlərini, milli musiqimizin ən gözəl notlarını, şanlı tariximizi Azərbaycan ailəsinin gündəlik həyatında yaşadacağıq.

Bütün çətinliklərə, beynəlxalq ədalətsizliyə mətinliklə sinə gərən Azərbaycan dövləti inamla torpaqlarını azad etdiyi kimi, həm də erməni vandallığının qurbanı olan bütün şəhər və kəndləri yenidən quracaq və dirçəldəcək. İşğaldan azad edilmiş rayonlarımıza, bütün Qarabağa yeni nəfəs veriləcək. Ermənilər unutmamalıdır ki, Azərbaycan Prezidenti illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəltməyə yönəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanlar öz el-obalarına geri dönəcəklər".

---

**Fond 2025-ci ildə Azərbaycanda ÜDM-in 77 milyard dollara yüksələcəyini ehtimal edir**

# Valyuta Fondunun yeni nikbin proqnozları

Beynəlxalq Valyuta Fondu (BVF) dərc etdiyi "Regional iqtisadiyyatın inkişaf perspektivləri" adlı yeni hesabatında Azərbaycanın iqtisadi artımla bağlı proqnozlarını yeniləyərək bir neçə ay əvvəlki makroiqtisadi göstəricilərə nisbətən daha da yaxşılaşdırıb. Fondun analitik qrupunun proqnozlarına əsasən, 2024-cü ildə ölkəmizdə ÜDM-in nominal dəyəri 75,6 milyard dollar təşkil edəcək ki, bu da milli valyuta ilə 128,5 milyard manat deməkdir. Eyni zamanda, bu göstərici BVF-nin 2023-cü ilə dair proqnozundan (72,4 milyard dollar və ya 123,1 milyard manat) 4,8 faiz çox olmaqla cari ilin sonunda nominal dəyər ifadəsində əlavə 5,4 milyard manat ÜDM-in istehsal ediləcəyini şərtləndirir.

### BVF 2024-2025-ci illərə dair artım göstəricilərini yüksəldib

Xatırladaq ki, Beynəlxalq Valyuta Fondu Azərbaycanda iqtisadi artımla bağlı gözləntilərini aprel ayında dərc etdiyi "World Economic Outlook" adlı hesabatında təsnifləşdirərək inkişaf tempinin 2024-cü ildə 2,8 faiz olacağının əks etdirmişdi. Hazırkı yeni nəşrdə isə bu rəqəm 3,2 faizə yüksəldilib. Eləcə də, 2025-ci ildə iqtisadi artımla bağlı göstərici öncəki proqnoza nisbətən 1 faiz artırılıb.

BVF-nin mövcud dəyərləndirməsinin əsas səbəblərindən biri cari ilin 2-ci və 3-cü rüblərində bir çox region ölkələrinin, o cümlədən Azərbaycanın iqtisadiyyatında baş verən dəyişikliklərdir. İlin ötən son 2 rübü ərzində əksər region ölkələrində iqtisadi artım sabit qalsa da, Azərbaycanın yerləşdiyi coğrafiyada ümumi artım meyilləri nisbətən yüksəlib, həmçinin, yeni gözləntilər meydana çıxıb.

Beynəlxalq maliyyə institutları, o cümlədən BVF 2024-cü ilin ilk rübündə Azərbaycanda iqtisadi artımda neft faktoruna əhəmiyyətli yer versə də, ÜDM-in enerji amili üzərində dayanmadığı, daha çox qeyri-neft sektorunda əlavə dəyərinin yarandığı nəzərə alınaraq, makroekonomik hesablamalarda mövcud dəyişikliklər edilib. Belə ki, cari ilin yanvar-sentyabr aylarında ölkəmizdə 92,8 milyard manatdan çox ÜDM istehsal edilib ki, bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz çoxdur və həmin




əlavə dəyərin böyük bir hissəsi qeyri-neft yığım mənbələrindən formalaşıb. İqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyər 7,1 faiz artmaqla ümumi iqtisadi artımı az qala 2 dəfə üstələyib. Eləcə də sənayedə, ələlxüsusa da qeyri-neft sənayesində artım meyilləri yüksəlib və bu proses davam edir. Qeyri-neft resurslarının yüksək artımlarıı müqabilində ilin sonunda ümumi daxili məhsulun 5 faizə yaxın artacağı fərz edilir.

### Qeyri-neft ÜDM-i inkişafın əsas dayağına çevrilir

BVF, həmçinin ölkəmizdə inkişaf dinamikasını təmin edən digər sahələrdə də müsbət meyillərin müşahidə edildiyini vurğulayır. Belə ki, ÜDM-i böyüdən sahələr kimi tikinti, istehsal, investisiyaların da rolu qiymətləndirmələrdə nəzərə alınıb. Fondun açıqlamasında qeyd edilir ki, böyüyən dövlət investisiyaları və əhalinin real gəlirlərinin artması 2024-cü ilin ötən dövrlərində Azərbaycanın qeyri-neft ÜDM-nin davamlı artımını dəstəkləyib, neft-qaz sektoru isə Avropa bazarında tələbatın artmasından faydalanıb. Kreditləşmənin artımı daha da sürətlənərək 20 faizi ötüb, həm korporativ, həm də pərakəndə kreditləşmə yaxşı nəticələr göstərib. Sərmayələrin davamlı artımı və maliyyə axınları hesabında iqtisadiyyatda əlavə dəyərin həcminin böyüməsi istisna olunmur. Qeyd edilir ki, dünya bazarlarında yanacaq və enerji xammallarının ucuzlaşması karbohidrogen ixracatçısı olan Azərbaycanın suveren gəlirlərinə hissolunacaq təsirlər etmir və ölkənin tədiyyə balansı göstəriciləri dayanıqlı və qənaətbəxşdir, ölkənin profisitli maliyyə göstəriciləri maliyyə sabitliyinin möhkəmliyini təsdiq edir.

Beləliklə, BVF ölkəmizin ümumi iqtisadi dinamikasına söykənərək yeni iqtisadi artım çərçivəsi müəyyən edib.

### 2028-ci ildə ÜDM 89 milyard dollara çatacaq...

Hazırda Azərbaycanda ÜDM-in 4,7 faizlik artım tempi dünya üzrə ümumi iqtisadi artım göstəricisindən (3,2-3,5 faiz) yüksəkdir. Bu faktor da ölkəmizdə iqtisadi inkişafı təmin edən mənbələrin dayanıqlılığı və növbəti dövrlər üçün əlavə potensialların səfərbər olunmasına imkan verdiyini təsdiqləyir. Bu tempin ilin sonunda və növbəti ildə də davam edəcəyi, qeyri-neft ÜDM-nin orta artımının 7-8 faiz təşkil edəcəyi gözlənilir. Bu məqamları nəzərə alan Valyuta Fondu Azərbaycanla bağlı qarşıdakı ilə dair inkişaf proqnozlarını da nikbin fonda tərtib edib. Belə ki, fond 2025-ci ildə ÜDM-in 77 milyard dollara (131 milyard manat) qədər artacağını proqnozlaşdırır ki, bu da cari ildə ehtimal edilən əlavə dəyərin həcmindən nominal dəyər üzrə təxminən 3 milyard manat çox olacağı deməkdir.

Qeyd edək ki, bir neçə gün əvvəl Azərbaycan hökumətinin açıqladığı Ortamüddətli Xərclər Çərçivəsi sənədində də ÜDM-in illər üzrə artımı əks olunub. İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnozlara əsasən, 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcək. Orta müddətdə ÜDM-in real artım tempinin orta illik 3,3 faiz, qeyri-neft ÜDM-in isə 5 faiz olacağı proqnozlaşdırılır. 2024-cü ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz artacağı ehtimal edilir. Bu dinamika sonrakı illər üzrə davamlı şəkildə yüksələcək və 2028-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 77,8 faizə çatacaq, neft-qaz sektorunun payı isə 22,2 faizə bərabər olacaq.

Ümumilikdə, 2028-ci ildə ÜDM-in 150,8 milyard manata (təxminən 89 milyard dollar), o cümlədən qeyri-neft ÜDM-in həcminin 117,2 milyard manata qədər artacağı gözlənilir.

*ELBRUS*

# UNESCO-dan ölkəmizə qarşı növbəti qərəz...

## Krista Pikkat niyə erməni təəssübkeşi kimi çıxış edir?

Birləşmiş Millətlər Təşkilatının (BMT) Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO Azərbaycanın erməni işğalında olmuş ərazilərinə hələ də missiya göndərməyib. Dörd ildir ki, torpaqlarımız erməni işğalından azad olunub, ərazi bütövlüyümüz təmin edilib. Lakin UNESCO hələ də ermənilər tərəfindən viran edilmiş ərazilərimizə missiya göndərməyib.

Buna əsas səbəb isə UNESCO-nun Fransanın təsiri altında olmasıdır. Fransanın sabiq mədəniyyət naziri Odre Azule 2017-ci ilin oktyabrından qurumun baş direktoru vəzifəsini icra edir. Azulenin Fransanın hakimiyyət orqanlarından gələn sifarişləri qeyd-şərtsiz həyata keçirməsi heç kimə sirr deyil. Hətta bu təşkilat da ermənilərə havadarlıq etməyə başlayıb. Bugünlərdə isə UNESCO-dan növbəti dəfə Azərbaycanla bağlı təxribatçı açıqlamalar verilib. Bu dəfə onun rəsmiləri Qarabağdakı "tarixi" erməni abidələrinə ziyan vurulması ilə bağlı "narahatlıqlarını" bildiriblər. Qurumun Mədəniyyət və Fövqəladə Hallar Təşkilatının direktoru Krista Pikkat xarici KİV-lərə müsahibəsində "Qarabağdakı xristian abidələrinin 2020-ci ildə baş verən müharibədən ciddi təsirləndiyini və məhvolma təhlükəsi ilə üz-üzə qaldığını" iddia edib.

Qarabağda yaşayan ermənilərin regionu tərk etməsinə də münasibət bildirən Pikkat bununla bağlı "dərin narahatlıq duyduğunu" söyləyib. UNESCO rəsmisi Qarabağda yerləşən xristian məbədlərini və abidələrini ümumiləşdirərək, "qədim erməni arxitekturası" kimi təqdim etməyə çalışıb.

## Qərbi Azərbaycan İcması UNESCO-dan vəzifə borcunu yerinə yetirməyi tələb edir

Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması bəyanat verib. Bəyanatda UNESCO-nun nümayəndəsi Krista Pikkatın Azərbaycan ərazisindəki mədəni abidələr ilə bağlı Ermənistanın iddiaları əsasında ölkəmizə missiya göndərilməsi məsələsinə dair ifadə etdiyi mövqe qınanılıb və rədd edilib. Qeyd olunub ki, UNESCO rəsmisinin vaxtilə işğal edilmiş Azərbaycan ərazilərində və Ermənistanda Azərbaycan mədəni irsinin kütləvi şəkildə dağıdılması ilə bağlı UNESCO-nun müvafiq addımlar atması üçün dəfələrlə göndərilmiş müraciətlərin mahiyyəti üzrə cavabsız qalmasına aydınlıq gətirmək əvəzinə, Ermənistanın əsassız iddialarına yer verməsi qəbuledilməzdir. UNESCO-nun Azərbaycan xalqına qarşı dini və etnik əsasda nümayiş etdirdiyi bu ayrı-seçkilik bu təşkilatın Fransanın əlində anti-Azərbaycan siyasət üçün bir alətə çevrildiyini göstərir.

İcma UNESCO-dan Azərbaycana və xalqımıza qarşı böhtan və ayrı-seçkiliyə son qoymağı, Azərbaycan mədəni irsinin Ermənistan tərəfindən dağıdılması ilə bağlı öz vəzifə borcunu nəhayət yerinə yetirməyi, o cümlədən bu ölkəyə xüsusi monitorinq missiyası göndərməyi tələb edib.



## Təşkilat məlumatlı olsa da...

Qeyd edək ki, təşkilat 16 noyabr 1945-ci ildə yaradılıb, mərkəzi qərargahı Fransanın paytaxtı Parisdə yerləşir. Qurumun tərkibinə dünyanın müxtəlif hissələrində yerləşmiş 67 büro və alt bölmələr daxildir. Hazırda dünyanın 191 ölkəsi bu təşkilatın üzvüdür. UNESCO-nun proqramında qeyd olunan əsas məqsədi elm, təhsil və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verməkdir. Təəssüf ki, bəzi hallarda təşkilat öz proqram məqsədlərinə uyğun davranışlar nümayiş etdirmir. Azərbaycan hələ 44 günlük müharibədən əvvəlki mərhələdə işğal altına düşən ərazilərimizdəki mədəni-dini irs nümunələrinin ermənilər tərəfindən dağıdılması, özününküləşdirilməsi və yaxud təhqirlərə məruz qalması barədə UNESCO-nu mütəmadi qaydada məlumatlandırıb. Ancaq UNESCO tərəfindən bununla bağlı heç bir addım atılmayıb. Qurum 30 il ərizində respublikamızın çoxsaylı çağırışlarına rəğmən, mədəni irsimizə dəyən ziyanın dəyərləndirilməsi məqsədilə işğal olunmuş ərazilərə missiya göndərməyib.

## UNESCO-nun bəhanəsi

Müharibədən əvvəl UNESCO bəhs olunan ərazilərə missiya göndərməməsini siyasətə qarışmaması ilə əlaqələndirirdi. Eyni zamanda, işğalçı Ermənistan buna mane olurdu. Ancaq müharibədən sonra qurumun mövqeyində birdən-birə dəyişiklik müşahidə olundu. Belə ki, UNESCO-nun bəzi rəhbər şəxsləri Ermənistanın Azərbaycanın işğaldan azad etdiyi ərazilərdəki xristian abidələrini guya dağıtması ilə bağlı iddialarına cavab olaraq öz missiyalarını regiona göndərməyə hazır olduqlarını bildirdilər. Təşkilat rəsmilərinin Ermənistanın müraciətinə belə çevik reaksiya verməsi cəmiyyətimizdə haqlı etiraz doğurdu. Azərbaycan missiyanın regiona gəlib obyektiv araşdırma aparmasına tərəfdardır və bununla bağlı mövqeyini UNESCO-ya çatdırıb. Lakin görünən odur ki, təşkilat rəsmiləri yalnız ermənilərin marağına uyğun missiya təşkil etmək istəyirlər. Azərbaycan isə buna heç vaxt razı deyil.

Xatırladaq ki, UNESCO-nun tabe olduğu BMT-nin Təhlükəsizlik Şurası hələ 1993-cü ildə Ermənistanın hərbi birləşmələrinin Azərbaycanın işğal altına düşən ərazilərindən qeyd-şərtsiz çıxarılmasını özündə ehtiva edən dörd qətnamə qəbul edib. Həmin qətnamələrin icrasını Azərbaycan 44 günlük müharibədə öz gücünə təmin etdi. Belə çıxır ki, BMT-nin strukturlarından biri olan UNESCO öz fəaliyyətini Ermənistanın əsassız etirazları əsasında qurur. Bu amili Prezident İlham Əliyev 24 avqust 2021-ci il tarixində BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edərkən bir daha diqqətə çatdırmışdı: "Sözsüz ki, bizim BMT institutları ilə daha çox qarşılıqlı əlaqəyə ehtiyacımız var. Bildiyiniz kimi, UNESCO ilə də təmasdayıq. Biz UNESCO-nu, demək olar ki, 30 ilə yaxındır gözləyirik. Bilmirəm bunu bilirsiniz ya yox biz, bir neçə il bundan öncə hələ işğal dövründə, UNESCO-nu buraya səfər etməyə və bizim ərazilərdə nələrin törədildiyini görməyə dəvət etmişdik. Çünki ATƏT-in Minsk qrupu işğal olunmuş ərazilərə artıq iki faktaraşdırıcı missiya göndərmişdi. Biz onlardan yenidən bir missiya göndərməyi xahiş etdik, lakin onlar göndərmədilər. Biz UNESCO-dan tarixi abidələrimizə erməni təcavüzkarları tərəfindən dəymiş ziyanı gəlib görməyi xahiş edirdik, lakin onlar imtina etdilər".

## Məqsəd və mərama uyğun olmayan davranış

UNESCO-nun Azərbaycanın 30 il ərzində Ermənistanın işğalı altında qalan ərazilərində ermənilər tərəfindən dağıdılan, təhqirlərə məruz qalan tarixi mədəni-dini irs obyektlərinə laqeyd münasibət bəsləməsi ikili yanaşma nümunəsidir. Belə yanaşma UNESCO-nun məqsədləri ilə bir araya sığmır və suallar doğurur. Təşkilat öz statusuna uyğun fəaliyyət göstərməli və obyektivlik nümayiş etdirməlidir.

***Nardar BAYRAMLI***

# Okamponu da kampaniyaya "qoşdular"

## Korrupsioner "hüquqşünas" COP29-a qarşı hücumlarda yeni alət kimi...

COP29 yaxınlaşdıqca Azərbaycana qarşı edilən hücumlar daha sıx xarakter almaqdadır. Ən maraqlısı isə, heç bir arqument və ya bəhanə tapa bilməyən anti-Azərbaycan qüvvələr özünün boş taftalogiyasından əl çəkmir. Nəticədə isə, Azərbaycana qarşı aparılan şər-böhtan kampaniyası onların özlərinin ifşasına yol açır. Erməni lobbisinin "kuklası"na çevrilmiş şəxsləri dövriyyəyə salmaqla uğur əldə edəcəklərini düşünənlər əslində bu başdan məğlubiyyətlərini elan və etiraf edirlər. Çünki alət kimi istifadə edilən həmin şəxslərin kimliyi, reputasiyası, korrupsiya girdabından xilas ola bilməməsi faktları özü hər şeyi deyir və artıq şərhə ehtiyac qoymur...

## Erməni təbliğatının Okampo "üzü"...

Məsələn, anti-Azərbaycan kampaniyaların önündə yer alan, erməni lobbisinə nökərçilik edən "hüquqşünas", Beynəlxalq Cinayətlər Məhkəməsinin keçmiş hakimi Luis Okampo kimiləri məqam düşdükcə özlərinin simasızlıqlarını daha aydın şəkildə ictimai rəyə "tanıdırlar". Məsələnin məğzinə keçməmişdən öncə vurğulayaq ki, Luis Okampo kimi neqativ reputasiyaya malik şəxslərin vasitəsilə reallaşdırılan "hücumlar" elə ilk həmlədəcə sabun köpüyü kimi sıradan çıxmağa məhkumdur. Bu şəxsin kimliyi və "həyat fəaliyyəti"nin istiqamətləri onun məqsəd və məramının bütün aspektlərini üzə çıxarır - Okampo illərdir separatizmin qatı təbliğatçısı və korrupsiyaya bulaşmış birisi kimi tanınır. Bu şəxsin məhz konkret cinayətdə ittiham olunan separatçılarla isti münasibəti gizli deyil - bir ildən artıqdır ki, Azərbaycanın ədalət mühakiməsinə çıxarılan separatçı cinayətkarların azad edilməsi üçün başlanan kampaniyada da Okamponun "qabağa verilməsi" təsadüfi deyil.

## Qaranlıq keçmişə malik "hüquqşünas"ı separatçılarla nə bağlayır?

Vurğulandığı kimi, Okampo kimiləri üçün bəşəri və ya mənəvi dəyər yoxdur - onlar üçün yalnız riyakarlıq var ki, bunun əvəzində özlərinin maddi təminatlarını yüksəldirlər. Okamponun rüşvətxor "dosyesi" bu şəxsin hansı dona girə biləcəyini açıq şəkildə ortaya qoyur. Erməni lobbisinin "adamı" kimi xarakterizə olunan Okampo qaranlıq keçmişə malik birisidir. Düzdür, o, həyatının bəzi şübhəli məqamlarını pərdələməyə çalışsa da, buna nail olmayıb. BCM-in prokuroru işləyərkən səlahiyyətlərindən "geniş və rahat" şəkildə istifadə etməsi, sərvət qazanması barədə məlumatlar kifayət qədər çoxdur. Məsələn, Almaniyanın nüfuzlu "Spiegel" nəşrinin 2017-ci ildə dərc etdiyi qalmaqallı məqalədə Okamponun hələ prokuror işlədiyi dövrdə vergi cənnətləri sayılan Panama və Virciniya adalarında müxtəlif şirkətlərdə idarəçiliyi həyata keçirdiyi, ancaq bunu bəyan etmədiyi barədə məqamlar yer alıb. Eyni zamanda, o, bir sıra məxfi sənədləri və məlumatları məşhurlarla, milyarderlərlə paylaşıb. Bu siyahıda aktyorlar Ancelina Coli, Corc Kluni, EBAY-ın həmtəsisçisinin həyat yoldaşı Pierre Omidyarın adları keçir. 2012-ci ilin 15 avqust tarixində - BCM-in prokuroru vəzifəsindən ayrıldıqdan cəmi 2 ay 10 gün sonra Okamponun ABN Amro bankındakı hesabına 50 min dollar pul köçürülüb. Pul İsveçrədəki hesabdan daxil olmuşdu və Panamada yerləşən "Tain Bay" korporasiyası tərəfindən Avropaya göndərilmişdi. Pul transferləri getdikcə artmağa başladı. Növbəti aylarda 140 min dollar bankdakı hesaba bir neçə tranşla yenə də Panamadan daxil oldu. Jurnalist araşdırmaları onunla bağlı təkzibolunmaz faktları üzə çıxarmaqla Okamponun qaranlıq fəaliyyətinə "işıq tutdu". Bu kimi saysız faktlar Okamponun "hüquqşünas" libası altında gizlənmiş korrupsioner bir "siyasi dəyənək" olduğunu ortaya qoyur.



Qarabağda baş tutan antiterror tədbirlərindən sonra isə Okampo birmənalı şəkildə erməni separatizminin dəstəkçisi olmağa "qərar verdi". Ötən ilin payızından bu yana qeyri-real "hesabatlar"la, yalan "bəyanatlar"la gündəmə gəlməyə çalışan Okampo erməni lobbisinin maddi dəstəyi ilə separatçı xunta başçılarının azad edilməsinə, məsuliyyətdən yayınmasına çalışır. Bu uğurda isə bütün yollara baş vurur. Bunun qarşılığında isə həm erməni lobbisindən, həm də "dostu" Ruben Vardanyandan pul "qoparır".

## Növbəti riyakarlıq...

Okampo növbəti dəfə riyakarlığa imza atıb - o, Qarabağdakı keçmiş separatçıları, dolayısı ilə terrorizmi dəstəklədiyini bir daha bəyan edib, "Müharibə və yaxud ədalət məhkəməsi: cəzasızlığın sona çatdırılması" "kitabı"nı dərc edib. Başdan-ayağa terrorizm və separatizmin dəstəkləndiyi "kitab"da "DQR"ə və onun cinayətkar rəhbərlərinə açıq dəstək nümayiş etdirilib. Erməni mediası yazır ki, Luis Moreno Okamponun kitabının beşinci fəsli tamamilə Qarabağ münaqişəsinə həsr olunub. İddia olunur ki, "Beynəlxalq Cinayət Məhkəməsi müharibəni ədalət mühakiməsi ilə əvəz etmək vəzifəsini qarşısına qoyub. Əfqanıstan, İraq, Ukrayna, Ermənistan, İsrail və Fələstindəki münaqişələri "təhlil edən" kitabın müəllifi qeyd edir ki, "hüquqi arxitektura demək olar ki görünməz, rəngsiz və ehtirassızdır, lakin bu, həyat və ölüm məsələsidir. Müharibə qisas doğurur, ədalət mühakiməsi isə bundan qaçır".

İndiki halda isə, Okampo həm də COP29-a qarşı təbliğat kampaniyası quran dairələrin "işinə yarayır". Aylardır ki, eyni tezislər üzərindən hücumlar təşkil edənlərin "tələblərinə" nəzər saldıqda hər şey ortaya çıxır:

- Anti-COP29 - çular Qarabağdan Ermənistana öz xoşu ilə köçmüş şəxslər üzərindən manipulyasiya həyata keçirməyə çalışır;
- Separatçı canilərin azadlığına nail olmağa çalışır;
- Yalan informasiya yaymaqla Azərbaycana qarşı "işğalçı" "ittihamı" irəli sürür;
- Yenə də yalanlarla dolu guya "erməni irsinə malik" hansısa "abidələri" "dağıtdığımızı" iddia edir;
- Nəhayət, "demokratiya", "insan hüquqları", "siyasi məhbus" kimi ənənəvi "tezislər"lə kampaniya təşkil edirlər.

Aİ-nin bəzi strukturları (Avropa Parlamenti), bəzi ölkələr, ABŞ konqresmenləri Okamponun yalan

## Eyni "mətbəxin" direktivləri...

iddialarını artıq bir neçə aydır ki, "dövriyyəyə" salıblar. Okamponun da eyni direktivlərdən çıxış etməsi, bu tezislərin vahid "mətbəxdən" çıxdığının göstəricisidir.

Təbii ki, aparılan bu kampaniyaların heç bir xeyri yoxdur. Azərbaycanın COP29-a uğurlu şəkildə ev sahibliyi edəcəyinə şübhə olmadığı kimi, hər zaman beynəlxalq hüquqa hörmət nümayiş etdirməsi faktının da sübuta ehtiyacı yoxdur. Nəticə etibarı ilə, bu çağırışlar, bəzən isə hətta "hədə" formasında səslənən fikirlərin heç biri ölkəmizin verdiyi və verəcəyi qərarlara təsir etmir - Azərbaycan Prezidentinin hər zaman ifadə etdiyi kimi, heç bir güc ölkəmizin iradəsinə təsir göstərə bilməz.

***P.İSMAYILOV***

# Tramp Harrisdən öndədir...

## Final sorğusuna əsasən, respublikaçıların namizədi demokratların namizədini 3 faiz qabaqlayır

Noyabrın 5-də ABŞ-da keçiriləcək prezident seçkiləri ilə əlaqədar siyasi mübarizə daha da güclənməkdədir. Mübarizə keçmiş prezident, respublikaçıların namizədi olan Donald Tramp və indiki vitse-prezident, demokratların namizədi Kamala Harris arasında gedir.

Seçkiyə sayılı günlər qaldığı zamanlarda bir sıra reytinq agentlikləri namizədlərin şanslarını qiymətləndirir. Seçki günü yaxınlaşdıqca, aparılan təbliğat kampaniyalarının Ağ Ev uğrunda yarışa hansı dərəcədə təsir etməsi aparılan sorğularla müəyyənləşməkdədir. Son dövrlərə qədər sorğuların əksəriyyətində eks-prezident Trampın üstünlüyü açıq şəkildə görünürdü. Hətta bəzi ştatlarda bu fərq on faizlər baryerinə qədər uzanmışdı. Son proseslər, xüsusilə Pensilvaniyada keçirilən ikili debatın ardından şanslar demək olar ki, bərabərləşdi. Baydenin seçki yarışından çəkilməsi qərarı ilə marafona qoşulan Harris öz şanslarını bir az artırmış kimi göründü.

## Tramp 49 faiz, Harris isə 46 faiz seçici dəstəyinə sahibdir

Lakin son rəy sorğuları D.Trampın yenə önə çıxdığını təsdiqləyir. Belə ki, Britaniyanın "Daily Mail" qəzeti və "J.L. Partners" kompaniyasının final sorğusuna əsasən, ABŞ-ın sabiq prezidenti və Respublikaçılar Partiyasının namizədi Donald Tramp demokrat rəqibi, vitse-prezident Kamala Harrisi 3 faiz üstələyir. Sorğunun nəticələrinə görə, potensial seçicilərin 49 faizi respublikaçı namizədə, 46 faizi isə Demokratlar Partiyasının namizədinə səs verməyə hazırdır. Qeyd olunur ki, respondentlərin ümumilikdə bir faizi müstəqil namizədlərə səs vermək fikrində olduğunu bildirib. Sorğu oktyabrın 26-29-da 1000 seçici arasında keçirilib.

## Xanım Harris Baydenin siyasi kursundan imtina etdi

Xatırladaq ki, Harris Demokratların prezidentliyə namizədinin müəyyənləşdiyi qurultaydan bir həftə sonra prezidentliyə namizəd statusunda Ağ Evdə KİV-ə verdiyi ilk müsahibədə Baydenin siyasətini davam etdirəcəyini bildirmiş, sonradan isə bu fikri təkrarlamışdı. Amma seçkiyə sayılı günlərin qaldığı bir zamanda Harrisin mövqeyində tam dəyişiklik nəzərə çarpdı. Xanım Harris "Fox News" telekanalına müsahibəsində bildirib ki, seçkilərdə qalib gələcəyi təqdirdə onun prezidentliyi Ağ Evin hazırkı rəhbəri Co Baydenin kursundan kəskin fərqlənəcək: "Mən açıq deyim: mənim prezidentliyim Co Baydenin prezidentliyinin davamı olmayacaq. Vəzifəyə gələn hər bir yeni prezident kimi, mən də öz həyatımı, peşəkar təcrübəmi və yeni ideyalarımı özümlə gətirəcəyəm". Vitse-prezident əlavə edib ki, onu Baydendən fərqləndirən cəhət karyerasının çox hissəsini Vaşinqtondan kənarda keçirməsidir. Harrisin öz sözləri ilə desək, o, özünü "yeni liderlər nəsli"nin nümayəndəsi hesab edir.



Bu fikirlər isə ABŞ-ın siyasi kluarlarında geniş müzakirələrə yol açıb. Bəziləri bu açıqlamanı Tramp-Harris debatındakı məğlubiyyətin təsdiqi, bəzi siyasi mütəxəssislər isə "son ümid" adlandırır.

Əvvəlcə Baydenin prezidentliyi dövründə ABŞ-ın yaşadığı iqtisadi - siyasi geriləməni "davam etdirəcəyini" bildirməsi Harrisə ştatlardakı onlayn praymerizdə nə az-nə çox, 10 faizdən yuxarı səs itkisinə başa gəlmişdi. Əgər o vaxta qədər iki namizəd arasındakı səs faizi fərqi birrəqəmli idisə, artıq faiz fərqli ikirəqəmlidir. Bütün bunların fonunda Harris Baydenin siyasətindən imtina etməyə məcbur olub.

Amerikalı sosioloqlar da iddia edirlər ki, ABŞ-ın 50 ştatının əksəriyyətində seçici kontingenti demək olar dəyişməzdir - bu ştatın seçiciləri demək olar ki, hər seçkidə eyni partiyanın namizədini dəstəkləyirlər. Hər iki namizədin qalib gəlmək şansının fərqləndiyi ştatlar isə cəmisi barmaq sayı qədərdir, seçkinin taleyi də çox vaxt bu "yelləncək" ştatlarda həll olunur. Hazırda bu kimi "yelləncək" ştatlarda hər iki namizədin nəticələri bir-birinə çox yaxındır və bu yarışda həqiqətən kimin lider olduğunu müəyyən etmək çətinləşib. Məsələn, Pensilvaniya, Miçiqan və Viskonsin vaxtilə demokratların üstün olduğu ştatlar sayılsa da, 2016-cı il prezident seçkilərində Trampa səs vermişdilər. Bayden 2020-ci ildə bu ştatlarda qalib gəlsə də, eyni uğurun Harris tərəfindən təkrarlama ehtimalı çox azdır. 4 ştatda - Nevada, Pensilvaniya, Miçiqan və Viskonsində şanslar bir-birinə çox yaxındır. Aparıcı ştatlardan Şimali Karolina, Corciya və Arizonada isə keçmiş prezidentin üstünlüyü açıqdır.

## Sui-qəsd cəhdləri Trampın reytinqini artırdı

Bu arada məlum olub ki, Demokratlar Partiyasından prezidentliyə namizəd Kamala Harris seçkiqabağı kampaniyasına respublikaçı rəqibi Donald Trampa nisbətən gündə 5 milyon dollar çox vəsait xərcləyir. "Bloomberg" agentliyinin məlumatına görə, Harris seçkiqabağı kampaniyaya gündə orta hesabla 7,5 milyon dollar, Tramp isə 2,6 milyon dollar sərf edib. ABŞ Federal Seçki Komissiyası Kamala Harrisin seçki yarışına sentyabr ayında 404 milyon dollarla, Donald Trampın isə 295 milyon dollarla daxil olduqlarını bildirib.

Seçki kampaniyası dövründə D.Trampa qarşı sui-qəsd cəhdləri də onun reytinqinin yüksəlməsinə səbəb olan amillər sırasındadır. Nəzərə alaq ki, birinci sui-qəsd cəhdindən sonra hazırkı prezident Co Bayden seçki yarışından geri çəkilməyə məcbur oldu. Bu baxımdan, Trampa qarşı digər sui-qəsd cəhdləri də demokratların indiki namizədi Kamala Harrisin də reytinqinə mənfi təsir edəcəyi gözlənilən idi. Bütün hallarda, yekun nəticə noyabrın 5-də məlum olacaq.

***N.BAYRAMLI***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## *Şənbə üçün nəzm*



### *Hidayət*

# Mığrı bayatıları

Bu dərə Xəstədərə
Boyu çox bəstə dərə.
Yara xəbər elədim-
Dava-dərman göndərə.

Bu çeşmə Kazımlardı,
Yayda da buzdu, qardı.
Bir ovuc suyun içdim-
Bağrım başını yardı.

Bu yaylaq Tanrıqulu-
Göylərin torpaq yolu.
Getdim ki, sərinləyəm,
Tökdü qar, döydü dolu.

Bu zəmi Qanlızəmi,
Hisslərin coşan dəmi,
Adına baxma, burda
Unduarsan dərdi-qəmi.

Bu meşə Qərbəzaydı,
Yolun ot basıb, zaydı.
Şair olmayan kəs də
Burda nəğmə yazardı!

Bu su Misgər suyudu,
İçib bağlar uyudu...
Ay soyunub lüt çimdi,
Günəş üzünü yudu.

Bu su Top çeşməsidi,
Bu gözəllik bəsidi!
Küləklərin harayı
Gəncliyimin səsidi.

Bu dərə Cavadlıdır,
Dibsizdir, büsatlıdır.
İstədim ceyran tutam,
Gördüm ki, qanadlıdır.

Bu, Dadaş, kəfşənidir,
Qızılgüllər şənidir.
Bir vaxt ilan mələrdi,
Dönüb gülzara indi.

Bu zəmi Ağ zəmidi,
Damağı çağ zəmidi.
Yarla kəlmə kəsməmiş,
Gördüm sevda dəmidi.

Bu bulaq Tey bulağı,
İndi elə göz dağı-
Ölümdən də betərdir,
Bulağın qurumağı.

Bu sədr Hüseyindi,
Sözü, işi yeyindi.
Sordum yuaşın neçədi?
Dağlarla qürrələndi...

Bu uca dağ Ələngəz,
Adın tut, dünyanı gəz.
Ondan ucalıq istə,
Can istə, əsirgəməz!

Bu ev baba ocağı,
Bu ev ata qucağı,
Alnımı qırışdırdı
Anamın qocalmağı.

Baş əyirəm, beşiyim!
İlk yuvam, ilk keşiyim-
Borcunu qaytarammaz
Bugünkü ev-eşiyim.

Yolları göydən asın,
Şairə qulaq asın:
Dağa, dərəyə nə var-
İnsanlar qocalmasın!

**1980**

# “Avtoportret-83”

Zəngəzurda doğuldum,
İrəvanda yaşadım,
Bakıda öləcəyəm.
Kövrək sarı sim idim,
Unudulmuş,
Mükəddər
nəğməyə dönəcəyəm.
Bir yaddaş istəyərəm-
Bacara bilsə əgər-
Ömrünün qarasını,
ağını, yarasını,
çətən-çətən təzadlı
saatları, günləri
vura, çıxa, cəmləyə...
Yoxsa bütün həyatım,
ömrüm, müqəddəratım,
sığışar beş cümləyə.

Zəngəzurda doğuldum,
İrəvanda yaşadım,
Bakıda öləcəyəm.
Kövrək sarı sim idim,
Unudulmuş,
Mükəddər nəğməyə dönəcəyəm.
Nekroloq istəmirəm,
Urvatlı misralarım,
Oxunan nəğməm varsa,
İlk şeirimi çap edən
o qəzetdə yazılsın.

Heç bilmirəm nə deyim,
Heç bilmirəm, doğrusu,
qəbrim harda qazılsın?

Bakı tünlükdür yaman,
Mənim boyum ucadır.
Zəngəzurda yer boldur-
Kəndimiz balacadır,
Qəbristanı yol üstə...
Mənim kimi oğullar
dönmədi doğma kəndə.
Ürəyim qana dönür
Hərdən ora gedəndə...
Bu gün doğma kəndimdə
babamın nəfəsi var,
Sabah kiçik kəndimin
böyük qəbristanının
yoldan ötən atların
dırnaqları zərbindən
məhv olmaq təhlükəsi var...

Zəngəzurda doğuldum,
İrəvanda yaşadım,
Bakıda öləcəyəm.
Kövrək sarı sim idim,
Unudulmuş,
Mükəddər nəğməyə dönəcəyəm.

Tək-tənha adamlarla,
böyük izdihamlarla,
təzə-tər səhərlərlə,
gəzdiyim şəhərlərlə,
oxuduğum kitablar,
gördüyüm heykəllərlə,
önündə baş əydiyim
pirlərlə məbədlərlə
tanıdım bu həyatı.

Ömrüm-üççə misralı
bir yarımçıq bayatı!
Bu misralar doğulub
Səyyah ayaqlarımın,
sonsuz soraqlarımın,
leysan yağışlarımın,
heyrət baxışlarımın
nidası, zərbəsiylə,
Axırıncı misrası
yazılmayıbdır hələ.

...İndi burdan baxıram
Yaşadığım günlərin,
yazdığım sətirlərin
qarasına, ağına,
Bir qədəh qaldırıram
bayatımın sonuncu misrası yazılacaq
o günün sağlığına!
Deyirəm: gec gəl, ey gün!
Həsrət əzəldən elə
Təbiətin şairə ən qiymətli bəxşidir,
Uğursuz uğurlardan
yenə həsrət yaxşıdır.

**1983, Praqa.**

# Zəngəzur

## *Dayım Əli Məmmədovun unudulmaz xatirəsinə*

**I.Harda xəstələnsəm...**

Bir asta yeri dar cığırlarla-
Qar uçar,
daş qaçar,
qaya sürüşər...
Aranda dayanıb ucaq dağlara
Boylanmaq istəsəm,
papağın düşər
Dəli çağlayanda hayqırar, çıxar
Durnalar
karvanı olar göylərin.
Gözəllik
çaylara qoşular, axar,
Dağlar fikirlidir,
dərələr-dərin...
Bu ulu diyarın hər çəhlimini
Çəkmişəm ömrümün varaqlarına.
Harda xəstələnsəm, a dostlar, məni
Çatdırın Zəngəzur yaylaqlarına.
Görüb qartalların öz yuvasını
Çinara dönərəm,
dağ olaram mən.
Udub zirvələrin saf havasını,
Davasız-dərmansız sağalaram mən.

**II.Təbiət tərifləyib**

Bura durnagözlü bir diyardır ki-
Tale gözəlliyi yerə səribdir.
İyədli, söyüdlü ilk bahardır ki-
Ana təbiətdən təriflənibdir...
Mığrı gecələri qəndlitək yanar-
Ulduzlarımı yerə tökülüb, nədir?
Xəllərgə çayının nəğməsi ki var,
Təbiət dilində min hekayədir...

Qafanın qəribə səfası vardır,
Arxası söykənmiş uca dağlara,
Dağ yolu-alnının qırışlarıdır,
Sinəsi oxşayır ilkin bahara.

Zəngəzur-bir sevən nəğməli ürək:
Təzadlı,
zirvəli,
bağlı-bərəli.
Bir əli yapışıb Arazdan bərk-bərk,
Buludlarda itib o biri əli.

Qəcəldən arana baş alan yellər
Dəli Koroğlunun telli sazımı?
Dibsiz dərələrin bəs nə gileylər?-
Dərələr
ömrünün etirazımı?
...Üçtəpə
təpədən-dırnağa çiçək,
Qayalar anadan haça olubdur.
Sinəsindən ötmüş qoç igidlərtək
Zəngəzurun başı uca olubdur.

**III.Babamın yaşıdı, mənim yaşıdım**

Çoban çarığının başı açılıb:
Cırılar
dağların yaşı olubdur,
Ələngəz
babamla qoşa qocalıb,
Qırx dörddə mənimlə bir doğulubdur!

Hicran harayı var hər gur bulaqda,
Neçə nər qəhrəman burden su içib.
İndi mən gəzdiyim bu düzdən, dağdan
İldırım vüqarlı igidlər keçib.

Qan-qada görübdür burda babalar,
Yüz kəndin torpağı-daşı itibdir.
Lökdə bir meşənin məzarlığı var-
Kötük-başdaşların yaşı itibdir.

Qaşlar çatılıbdır burda bir vaxtlar,
Nifrətlər, qəzəblər aşıb-daşıbdır.
Zəngin sərvətiylə öyünən diyar
Bir vaxtlar lütləriylə məşhurlaşıbdır.

Quraqlıq çox erkən qovub baharı,
Çörəksiz yetimin bənizi solub.
“Kasıb” Zəngəzurun qızılı-varı
“Səyyah” ingilisin cibinə dolub.

Zəngəzur lütləri gəzib hər yanı,
Dolaşıb kədərli, diyarbadiyar.
Bəzən də tökülənn günahsız qanı
Tarixdə qalıbdır acı yadigar.

**IV.Payızla qış arasında**

Ələngəzdən Zəngəzura baxıram-
Dağların başında duman görünür.
Ürəyimi yandırıram, yaxıram,
Yalçın qaya,
sürü
çoban görünür...
Duman kəmər kimi qurşanıb dağa.
Gecə...
Kəmər qaşı-göydə min ulduz!
Bir az istiləşib qaynar bulaq da,
Təpələr-kədərli,
qayalar-yalqız.
Bu yerin payızı, yoxsa qışıdır?-
Qışın özünə yurd axtarışıdır?-
Çoban dağ başında...
Tonqal alışır,
Payız qış,
qış payıza qarışır...

**V.Zəngəzurdur!**

Bu el çeşmə məskəni,
Lilparlıdır suları.
Vəcdə gəlir insanın
İstəyi arzuları.
Burda hər qarış torpaq
Gözəlliyin quludur,
Hər daş, hər iz, hər bulaq
Müqəddəsdir, uludur.
Tale tərifləyibdir:
Hər cizgisi yerində-
Nə artıq şey, nə qüsur,
Bir söz: gözəllik yurdu
Zəngəzurdur,
Zəngəzur!
Bağlarına dayan, bax!
Dağlarına boylan, bax!
Dərəsinə, düzünə,
Qayasına hər an bax!
Arxlarına pıçılda
Ürəyində nəyin var,
De, köksünü sıxmasın
Kədər, həyəcan, qubar.
De, dinləyər dərdini,
Əlac eləyər sənə,
De, boşaldar qəlbini
Göylərin qübbəsinə.
Burda hər şey minnətsiz,
Dünya büllurdan-büllur.
Bir söz, dolaşdığın yer
Zəngəzurdur,
Zəngəzur!

Harda qarşına çıxsa
Təmənnasız yaxşılıq,
Harda üzünə gülsə
Mehribanlıq, xoş qılıq,
Sevgin qanad açaraq
Zirvələrdə dolansa,
Harda yaran sağalsa,
Harda ömrün uzansa,
Harda qəlbinə dolsa
İnam, əzəmət, qürur-
O yerin əzəl adı,
İndiki gözəl adı
Zəngəzurdur,
Zəngəzur!

*1965, iyun-dekabr - 1975, fevral.*

**ZƏNGƏZURLUDUR!**

Çəhlimlər dırmaşar, cığırlar qalxar,
Üfüqlər sabahın işıq yoludur.
İldırımlar dinər, şimşəklər çaxar-
Ən məğrur nəğmələr zəngəzurludur.

Taleyin torpağa bəxşişidir bu-
Paklığın, qeyrətin, əzmin qoludur.
Minnətsiz yaxşılıq, şirin hiss, duyğu,
Sədaqət, etibar zəgəzurludur.

Hər parka göy səma, hər zərrə torpaq
Ulu gözəlliklə yenə doludur.
Hər coşqun dağ çayı, hər şəffaf bulaq,
Çox dərə, çox zirvə zəngəzurludur.

Burada min illərdir yaşayır ellər-
Tarixin alınmaz şöhrət yoludur.
Ən zərif nəğmələr, ən şirin dillər,
Ən təmiz məhəbbət zəngəzurludur.

Ozan mahnısında dillənir hünər,-
Şeiri də, sözü də zəngəzurludur,
Tale bəxşişidir, vallah, deyirlər:
Allahın özü də zəngəzurludur...

***1980, İrəvan.***




# Azercell-in dəstəyi ilə yaradılan “Uşaq Qaynar Xətti”nə son 3 ay ərzində 500-ə yaxın zəng daxil olub

***“Uşaq Qaynar Xətti” 2024-cü ilin 3-cü rübünün nəticələrini açıqladı***

2024-cü ilin iyul, avqust, sentyabr ayları ərzində “Azərbaycan Uşaq Qaynar Xətt” xidmətinə (AUQX) ümumilikdə 481 müraciət daxil olub. Xidmətin təqdim etdiyi hesabata əsasən, müraciətlərin 138-i hüquqi məsələlər, 63-ü psixoloji dəstək, 41-i sosial çətinliklər, 38-i təhsil problemləri, 5-i isə səhiyyə sahəsinə aid olub. Digər kateqoriyaya daxil olan və naməlum zənglərin sayı 196 təşkil edib.

18 yaşdan yuxarı olan şəxslər tərəfindən edilən müraciətlərin sayı 396, 18 yaşdan aşağı uşaqlardan daxil olan müraciətlərin sayı 39, naməlum zənglərin sayı isə 46-dır. Müraciətlərin 271-i qız, 164-ü oğlan tərəfindən, 46-sı anonim şəkildə edilib.

Daxil olan müraciətlərlə bağlı bir sıra vacib tədbirlər görülüb. Hesabat dövrü ərzində 38 ailə ilə görüş təşkil edilib, hüquqi dəstək göstərilib, 50 sosial-psixoloji reabilitasiya işi aparılıb. Bununla yanaşı, 10 ailəyə və 3 məktəbə təcili səfərlər təşkil olunub.

“Azercell Telekom” MMC-nin dəstəyi ilə fəaliyyət göstərən “Azərbaycan Uşaq Qaynar Xətt” xidmətinin əsas məqsədi uşaqlar və onların ailələrinin üzləşdiyi müxtəlif problemlərin həllinə ixtisaslaşmış yardım göstərməkdir. Xidmət uşaqların təhlükəsizliyinin və rifahının qorunması üçün daima fəaliyyətini genişləndirir.

“Uşaq Qaynar Xətt”i 116111 qısa nömrəsi, 4 mobil xətt (+994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80), elektron poçt (ushaqqaynarxetti@gmail.com), Facebook və Instagram sosial şəbəkələri, “uşaqqaynarxetti” mobil tətbiqi, həmçinin AUQX veb-saytındakı canlı çat üzərindən xidmət göstərir.

# “Balqabaqlar bayramı” və bizim uşaqlar...

## “Halloween” azyaşlılara necə təsir edir?

Hər il oktyabr ayının son günü xarici ölkələrin əksəriyyətində “Halloween” bayramı qeyd edilir. Bu bayram ingilis dilində “Halloween”, dilimizdə isə hellouin adlanan “balqabaqlar bayramı”dır. Balqabaq “Halloween”in əsas atributlarından biri hesab olunur. İnsanlar məhz bu bayramda balqabaqların içini oyub, içərisinə şam qoyurlar. Onlar ölmüş yaxınları ilə birlikdə dünyaya gəlmək istəyən ziyanverici ruhları qorxutmaq üçün qəribə makiyajlar edir, qorxunc paltarlar və aksesuarlardan istifadə edirlər.

Balqabaqlar bayramı xristian dünyasına, hətta daha qədimdə keltlərə məxsus olsa da, son zamanlar Azərbaycanda da qeyd edilir. Lakin mədəniyyətimizə yad olan bu bayramın azyaşlı uşaqlara göstərdiyi psixoloji təzyiqlər nəzərə alınmır. Hətta valideynlərin böyük əksəriyyəti övladlarını “Halloween”lə əlaqədar təşkil olunan bayram tədbirlərinə özləri aparır.

Psixoloqların böyük qismi bu bayramın ilk mənfi tərəfini uşaqların psixologiyasına yaratdığı təsirlə əlaqələndirirlər. Bayramın keçirilməsi zamanı şər qüvvələri, qorxulu obrazları, simvolik qaranlıq elementləri əks etdirən geyimlər və atributlar uşaqlarda qorxu, narahatlıq və mənfi duyğular yarada bilər. Xüsusilə, həssas psixologiyaya malik olan kiçik yaşlı uşaqlar üçün bu cür bayramlar qorxu və narahatlıq mənbəyi ola bilər. Amerika Psixoloji Assosiasiyası kimi beynəlxalq təşkilatlar da qeyd edir ki, qorxunc təsvirlər və obrazlar uşaqların psixoloji sağlamlığına mənfi təsir göstərə və onlarda yuxu pozğunluqları, qorxu, hətta aqressiv davranış yarada bilər.

Bəs bu bayram uşaqların yaddaşında hansı izləri buraxa bilər? Övladlarımıza bu bayramı qeyd etməyə icazə verməliyikmi?

**Uşaqlarda aqressiyaya yalnız “Halloween” səbəb olmur**

Sualımızı cavablandıran psixoloq Elnur Rüstəmov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, uşaqlarda şiddətə və aqressiv davranışlara meylin formalaşmasına təkcə “Halloween” kimi bayramlar səbəb olmur,



lakin erkən yaşda bu kimi təsirlərə məruz qalmaq müəyyən risklər doğura bilər: “Bu bayram adətən Qərb ölkələrində bir əyləncə kimi qəbul edilsə də, onun mədəniyyətlərarası fərqlərini nəzərə alsaq, Azərbaycanda xüsusi bir narahatlıqla qarşılanması təbiidir. Psixoloji cəhətdən formalaşma mərhələsində olan uşaqlar ətraf mühitdən və müxtəlif obrazlardan asanlıqla təsirlənirlər. Şiddət, qorxunc səhnələr və qeyri-real personajlar uşaqların təxəyyülündə bəzən real təhlükə kimi qəbul oluna və onların narahatlıq səviyyəsini artıra bilər. Uşaqlarda şiddətə və aqressiv davranışlara meylin formalaşmasına təkcə “Halloween” kimi bayramlar səbəb olmur, lakin erkən yaşda bu kimi təsirlərə məruz qalmaq müəyyən risklər doğura bilər. Xüsusilə, vizual təsvirlərdə şiddətin vurğulanması uşaqlarda qorxu və güvən hissinin pozulmasına, hətta yuxu problemlərinə yol aça bilər”.

**Daha əyləncəyönümlü keçirilsə...**

Psixoloqun sözlərinə görə, bu cür tədbirlərdə hər zaman uşaqların yaş xüsusiyyətləri və psixoloji həssaslığı nəzərə alınmalıdır: “Bayramı əyləncəli və daha mülayim formada keçirmək mümkündür. Misal üçün, qorxunc obrazlardan çox, daha maraqlı və təhlükəsiz obrazlar seçilməli, qətl və şiddət kimi səhnələrə yer verilməməlidir. Ümumi tövsiyə odur ki, bu kimi tədbirlər uşaqların psixoloji vəziyyətinə zərər vurmadan, əyləncəyönümlü olaraq təşkil edilsin”.

**Hər bayram yaxşı əyləncə üçün fürsətdir...**

Psixoloq Aytən Ələkbərova qeyd edib ki, ölkəmizdə insanların böyük əksəriyyəti bu bayrama qarşıdır, amma müxtəlif yerlərdə qeyd edilən “Halloween” şənliklərində uşaqların əlindən tərpənmək olmur və kifayət qədər əyləndiklərini görürük: “Halloween” qədim zamanlardan insanların pis ruhları qorxutmaq və ruhlar tərəfindən tanınmamaq üçün müxtəlif ayinlərlə qeyd etdikləri bayram kimi tanınır. Qədim dövrlərdə insanlar şənliklərdə tonqal yandırmaqla şər ruhları qorxutduqlarını və maskalanaraq ruhların onları tanımadıqlarını düşünürdülər. “Halloween” qədim dövrlərdə insanlar üçün qış dövrünün başlanğıcını bildirirdi. Yeniliklər həmişə gözəldir, lakin naməlumluq, qeyri-müəyyənlik qorxu gətirir. Qorxu və qeyri-müəyyənliklərdən qurtulmağın yollarından biri ona müqavimət göstərməkdir. “Halloween”in qayəsinə görə isə bu, qorxularımızdan qurtulmaq, maskalanmaq və onlardan qaçmaqdır. Ona görə də “Halloween” belə rituallarla dolu bir bayram olaraq mövcudluğunu davam etdirir. Hər bayram yaxşı əyləncə və vaxt keçirmək üçün bir fürsətdir. Şənliklərdəki kimi fərqli insanları qəbul etmək, maskalar və kostyumlarla fərqli görünüş əldə etmək istəyi mifologiyanın hakim olduğu dövrlərdən bəri mövcuddur”.

**“Halloween”in qeyd olunmasının qəti əleyhinəyəm!**

Psixoloq Fərqanə Mehmanqızı isə bayramının keçirilməsinin tamamilə əleyhinədir: “Hər bir bayramın mahiyyətinə fikir vermək lazımdır. Bu gün “Halloween”i maraqlı bilib qeyd edirik, uşaqlarımıza təbliğ edirik. Amma anlamırıq ki, bu bayram şər qüvvələrlə bağlıdır. Keçmişdə mövcud olan satanizm ideyalarından gələn elementlər bayram atributlarında əks olunub.

Tarix boyu Qərbdə satanizm ideyalarından formalaşan inanclar, adətlər olsa da, Şərqdə bu, heç vaxt özünü göstərməyib. Bizimkilərin bu bayramı maraqla qeyd etməsinin səbəbi müasir görünmək istəyidir. İnsanlar düşünür ki, Qərbdə bunu edirlər, biz də eləsək, müasir olduğumuzu sübut edərik. Halbuki, Qərb ölkələrindən “Halloween”əvəzinə daha əhəmiyyətli bayramları, uşaqların, gənclərin təhsili lə bağlı vacib məqamları, təcrübələri götürüb, cəmiyyətimizdə tətbiq etsək, yaxşı olar.

Psixoloq kimi “Halloween”in qeyd olunmasının qəti əleyhinəyəm. Bütün valideynlərə də bu bayramı qeyd etmək üçün övladlarını müxtəlif tədbirlərə aparmağı məsləhət görmürəm. Bunun əvəzində valideynlərə təklif edirəm ki, “Payız bayramı”na daha çox diqqət etsinlər, övladlarını buna yönləndirsinlər”.

Yeri gəlmişkən, bu gün Ölülər Günü kimi qeyd olunur. “Ölülər günü” karnavalı hər il noyabrın 2-də Latın Amerikasında, əsasən də Meksika, Qvatemala, Honduras və Salvadorda qeyd olunan, məqsədi ölüləri anmaq olan bayramdır. Adətə görə, bayram günlərində ölü kostyumlarında rəngarəng karnaval təşkil olunur.

Bayramın tarixi ispanlara qədərki dövrə, asteklərə kimi uzanır. Ölülər Günü “Halloween”dən fərqli olaraq qorxutma məqsədli deyil. Burada olan skeletlər ölənlərə işarədir. Vəfat etmiş insanları xatırlamaq üçün şəkərdən kəllə və bəzək-düzəklər, ölənlərin sevdiyi qoxuların, süsləmələrin olduğu qurbangahlar hazırlanır.

Ölülər günü kütləvi formada olmasa da, Azərbaycanda qeyd olunur. Ancaq etiraf edək ki, mədəniyyətimizə, milli-mənəvi və dini dəyərlərimizə yad olan belə bayramların ölkəmizdə keçirilməsi xoşagəlməz haldır. Yaxşı olar ki, öz kimliyimizi əks etdirən ənənələrə və bayramlara üstünlük verək. Digər ölkələr Azərbaycanın milli bayramını qeyd etmədiyi halda, bizim xüsusi canfəşanlıq və yüksək həvəslə xristian bayramlarına maraq göstərməyimiz xoş deyil...

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4808**
**Sifariş: 2509**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli